**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANDA ƏHALİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ QARABAĞ İQTİSADİ RAYONUNUN ROLU VƏ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Quliyev Maqsud Azad**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**___________________________ imza**

**"_-___" _______________ 20___-ci il**

# "AZƏRBAYCANDA ƏHALİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ QARABAĞ İQTİSADİ RAYONUNUN ROLU VƏ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060407 – Menecment

**İxtisaslaşma:** Menecment (sahələr üzrə)

**Qrup:** 238

**Magistrant:**
**Quliyev Maqsud Azad oğlu**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Nəsibov Vüqar Nizami oğlu**
**____________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________ imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Quliyev Maqsud Azad oğlu and içirəm ki, "Azərbaycanda əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində Qarabağ iqtisadi rayonunun rolu və perspektiv inkişaf istiqamətləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## AZƏRBAYCANDA ƏHALİNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ QARABAĞ İQTİSADİ RAYONUNUN ROLU VƏ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

### XÜLASƏ


**Tədqiqatın aktuallığı: Ərzaq təhlükəsizliyi qlobal səviyyədə aktual olan məsələlər sırasındadır. Bu kontektdən dövlətimizin II Qarabağ müharibəsindən sonrakı mərhələdə Qarabağ iqtisadi rayonunda yenidənqurma və bərpa işləri dövründə ən aktual olan məsələ kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sisteminin sıfırdan necə qurulmasıdır.**

**Tədqiqatın məqsədi: Qarabağ iqtisadi rayonun işğaldan öncəki dönəmdə respublikanın ərzaq təhlükəsizliyinin təminatındakı rolunu və rayonun kənd təsərrüfatının inkişaf vəziyyətini təhlil etmək, eyni zmanda post-konflikt dövründə ölkənin iqtisadi həyatına reinteqrasiyası nəticəsində ərzaq təhlükəsizliyinə verə biləcəyi töhfəsini araşdırmaqdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Müqayisəli təhlil, statistik təhlil, qruplaşdırma proqnoz (ekstrapolyasiya) metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Əsas informasiya bazasını keçmiş sovet dövrünün rəsmi statistik materialları təşkil etmişdir. Bundan əlavə ölkə Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik məcmuəsi, Dövlət Gömrük Komitəsinin, Dünya Bankının statistik məlumatları və gündəlik mətbuatın siyasi-iqtisadi məlumat və materiallarından, dünya ölkələrinin statistika idarələrinin və beynəlxalq reytinq agentliklərinin məlumatlarından istifadə olunmuşdur**

**Tədqiqatın məhdudiyyətləri: Təhlil olunması nəzərdə tutulan dövr üçün statistik-maliyyə ilinin son ilinin 1985-ci ili əhatə etməsi əsas məhdudiyyətdir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Dissertasiya işinin tədqiqatı zamanı aparılan araşdırmalar nəticəsində əldə olunan nəticələr iqtisadi rayonun keçmiş dövrdə ölkəmizin aqrar sektorun məhsulları istehsalında böyük paya malik olduğu təhlil vasitəsilə aşkara çıxarılmışdır. Bu təhlillər gələcəyə yönəlik təkliflərlə birgə iqtisadi zonanın inkişafının formalaşdırılmasında mühüm praktiki rol oynayacaqdır**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat vasitəsilə əldə olunan nəticələr əsasında aqrar sektorda əkinçilik sahəsinin innovativ əsaslarla inkişaf etdirilməsi ön plana çıxarılmışdır.**



***Açar sözlər: ərzaq təhlükəsizliyi, Qarabağ, işğaldan əvvəl, kənd təsərrüfatı, yenidənqurma və bərpa***

**THE ROLE AND PROSPECTIVE DIRECTIONS OF THE KARABAKH ECONOMIC ZONE IN ENSURING FOOD SECURITY OF THE POPULATION IN AZERBAIJAN**

**SUMMARY**

**The actuality of the subject: Our state is facing a huge national challenge, integration of all economic and cultural spheres, including the reconstruction of agriculture and the overall economic system in the liberated territories in ensuring food security of the country.**

**Purpose and tasks of the research: To analyze the role of the Karabakh economic region in ensuring food security in the pre-occupation period, as well as its contribution to food security as a result of reintegration.**

**Used research methods: : In research comparative analysis, statistical analysis, grouping, forecast (extrapolation) have been used.**

**The information base of the research: Mainly, official statistical materials of the former Soviet period. Furthermore, orders of the President, statistical data of the State Statistics Committee of the Republic of Azerbaijan, and State Customs Committee, the World Bank and political and economic information and materials of the daily press were used.**

**Restrictions of research: Access to official statistics of the past is relatively difficult.**

**The results of the research: The economic region had a large share in the production of agricultural products in the past.**

**The novelty and practical results of investigation: The creation of aeroponic and hydroponic, as well as urban forms in the economic region as the main scientific innovation will be in harmony with the concept of smart village and city.**

**Scientific-practical significance of results: Development of cropping in the agricultural sector on an innovative basis has come to the fore.**

***Keywords: food security, Karabakh, pre-occupation period, agriculture, reconstruction and recovery***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **ARDSK** | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BTQ** | Bakı – Tbilisi – Qars |
| **CQ** | Cənubi Qafqaz |
| **DİM** | Dayanıqlı İnkişaf Məqsədləri |
| **DQMV** | Dağlıq Qarabağ Muxtar Vilayəti |
| **EKTİS** | Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi |
| **ETT** | Elmi – Texniki Tərəqqi |
| **ƏQYP** | Əlavə Qida Yardımı Proqramı |
| **FAO** | Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **KKTKA** | Kanada Kənd Təsərrüfatı Kreditləri Aktı |
| **KTD** | Kənd Təsərrüfatı Departamenti |
| **KTTTP** | Kənd Təsərrüfatı Təmiz Texnologiya Proqramı |
| **MİH** | Minilliyin İnkişaf Hədəfləri |
| **OKS** | Ortaq Kənd Təsərrüfatı Siyasəti |
| **SES** | Su Elektrik Stansiyası |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |
| **ZQYP** | Zəruri Qida Yardımı Proqram |

MÜNDƏRİCAT

**GİRİŞ** .......... 8

**I FƏSİL. ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI VƏ ELMİ - METODOLOJİ PROBLEMLƏRİ** .......... 12

1.1. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial – iqtisadi mahiyyəti, əsas parametrləri və meyarları .......... 12

1.2. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin dünya təcrübəsi .......... 20

1.3. Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinin müasir vəziyyəti .......... 31

**II FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN TƏHLİLİ** .......... 36

2.1. İşğaldan əvvəlki dövrdə Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf vəziyyətinin təhlili .......... 36

2.2. İşğaldan əvvəlki dövrdə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsində Qarabağ iqtisadi rayonunun rolu və əhəmiyyəti .......... 44

2.3. İşğal dönəmində iqtisadi rayonun kənd təsərrüfatına vurulmuş ziyan və ətraf mühitə qarşı törədilmiş ekoloji terror .......... 54

**III FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ** .......... 62

3.1. Qarabağ iqtisadi rayonunda ərzaq təhlükəsizliyinin təmin edilməsinin yenidən qurulması və perspektiv inkişaf istiqamətləri .......... 62

3.2. İqtisadi rayonun kənd təsərrüfatının ölkənin iqtisadi həyatına reinteqrasiyası nəticəsində ərzaq təhlükəsizliyinə və idxaldan asılılığa təsiri .......... 66

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** .......... 77

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** .......... 80

Cədvəllərin siyahısı .......... 84

Qrafiklərin siyahısı .......... 85

Şəkillərin siyahısı .......... 85

# GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycan dövlətinin 44 günlük Dəmir Yumruq adlanan əks hücum əməliyyatının təntənəli zəfərindən sonra artıq həm region həm də dövlətimiz üçün yeni reallıqlar yaranmışdır. 30 ilə yaxın ərazisinin 20%-i işğal altında olan Azərbaycan üçün post-konflikt dövrü yenidənqurma və bərpa dövrü kimi xarakterizə olunur. Bütün iqtisadi-mədəni sferaların, o cümlədən, kənd təsərrüfatının yenidən qurulması və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında işğaldan azad olunmuş ərazilərin potensialının ümumi iqtisadi sistemi inteqrə olunması kimi nəhəng milli çağırışla dövlətimiz üz-üzədir. İşğaldan azad olunmuş ərazilər Azərbaycan Prezidentinin sərəncamı ilə yeni iqtisadi rayonların təsnifatında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları olaraq təsdiq olunmuşdur.

Beynəlxalq təşkilatların gələcək ilə bağlı proqnozları və dünya əhalisinin etibarlı ərzaq təhlükəsizliyi probleminin implementə olunan qlobal təşəbbüs və layihələrə baxmayaraq nəzərəçarpacaq səviyyədə böyük olması bu sahədə əsaslı tədqiqat aparılmasını zəruri edir. Həmçinin mövzu ölkəmizin ərzaq təhlükəsizliyini qabaqcıl ölkələrin təcrübəsi ilə müqayisə edib, ümumrespublika, eləcə də Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində sıfırdan qurulacaq kənd təsərrüfatı və ərzaq təhlükəsizliyinin etibarlı təminatına nail olmaq kimi yeni dövrün milli çağırışı olaraq aktuallıq kəsb edən məsələlərin nəzəri-praktiki cəhətlərini özündə ehtiva edir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Ərzaq təhlükəsizliyinin təmin olunması qlobal səviyyədə aktual olan və gündəlikdə duran problemlərdəndir. Onun ilk dəfə tədqiqi hələ XVIII əsrin sonlarında baş vermişdir. XX əsrdən etibarən isə beynəlxalq çərçivədə problemin öyrənilməsi və aradan qaldırılması istiqamətində proqram və strategiyalar yürüdülsə də əldə olunan nəticələrə baxmayaraq ərzaq təhlükəsizliyi problemi hələ də qalmaqdadır. Bu problem region və ölkələr üzrə spesifik xarakterli forma və cəhətlərə sahibdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin məqsədi Azərbaycanda ərzaq təhlükəsizliyinin təminatında mövcud çatışmazlığı tədqiq etmək və Qarabağ iqtisadi rayonun işğaldan öncəki dönəmdə respublikanın ərzaq təhlükəsizliyinin

təminatındakı rolunu və rayonun kənd təsərrüfatının inkişaf vəziyyətini təhlil etmək, eyni zmanda post-konflikt dövründə ölkənin iqtisadi həyatına reinteqrasiyası nəticəsində ərzaq təhlükəsizliyinə verə biləcəyi töhfəsini araşdırmaqdır. Tədqiqatın məqsədinə müvafiq olaraq dissertasiya işinin vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respublikasında ərzaq probleminin aradan qaldırılması istiqamətində həyata keçirilmiş plan və proqramları araşdırmaq;
- İqtisadi cəhətdən yüksək səviyyədə inkişaf etmiş ölkələrin kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı siyasət və proqramlarını araşdırmaq;
- Qlobal səviyyədə ərzaq probleminin aradan qaldırılması üçün həyata keçirilən proqram və strategiyaları tədqiq etmək;
- Qarabağ iqtisadi rayonunun işğaldan əvvəlki dövrdə kənd təsərrüfatını və onun ərzaq təhlükəsizliyinin təmin olunmasındakı rolunu təhlil etmək;
- Post-konflikt dövründə yuxarıda qeyd olunan vəzifələrin tədqiqatı nəticəsində əldə olunmuş təcrübəni əsas götürərək bu təcrübənin Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sisteminin yenidən qurulması perpektivlərində optimal səviyyədə tətbiq olunmasının konseptual formasını müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti qlobal səviyyədə aktual olan ərzaq təhlükəsizliyi problemi və ona qarşı həm Azərbacanda həm də dünyada həyata keçirilən preventiv tədbirlərdir. Tədqiqatın predmeti kimi Qarabağ iqtisadi rayonunda ərzaq təhlükəsizliyinin tədqiqi dayanır.

**Tədqiqat metodları:** Tədqiqat işinin aparılması zamanı bir sıra tədqiqat metodlarından istifadə olunmuşdur. Bu tədqiqat metodlarına daxildir:

Müqayisəli təhlil – bu metod vasitəsilə tədqiqat işinin aparılması zamanı istinad edilən statistik materiallar müfəssəl şəkildə təhlil – analiz edilərək, müqayisəli təhlil vasitəsilə tədqiqatda müqayisəsi vacib hesab edilən və aralarında obyektiv ümumilik mövcud olan obyektlər arasında təhlil aparılmışdır. Statistik təhlil – tədqiqat işinin aparılmasının mərkəzində dayanan təhlil metodudur. Bu metod vasitəsilə tədqiq edilən dövrün statistik materialları əsasında araşdırma aparılıb və təhlil edilmişdir. Qruplaşdırma – statistik təhlil aparıldıqdan sonra müəyyən

kateqoriya və kriteriyalar üzrə tədqiqat aparmaq üçün qruplaşdırma metodundan istifadə edilmişdir. Proqnoz (ekstrapolyasiya) - tədqiqat işində istifadə edilən metodlardan biri də proqnoz metodudur. Yuxarıda adı çəkilən metodların tətbiqi nəticəsində əldə olunan məlumatlardan gələcək dövrün təxmini hesabalamalarını aparmaq üçün proqnoz (ektrapolyasiya) metodundan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin tədqiq olunması üzrə seçilmiş tədqiqat metodları üçün əsas informasiya bazasını keçmiş sovet dövrünün rəsmi statistik materialları təşkil etmişdir. Eyni zamanda tədqiqat işinin aparılması üçün təhlilin kompleks əhatəliliyini təmin etmək məqsədilə ölkə Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik məcmuəsi, Dövlət Gömrük Komitəsinin, Dünya Bankının statistik məlumatları və gündəlik mətbuatın siyasi-iqtisadi məlumat və materiallarından istifadə edilmişdir. Qlobal miqyasda dünya ölkələrinin ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı siyasətini tədqiq etmək üçün isə ölkələrin milli statistika idarələrinin və beynəlxalq reytinq agentliklərinin məlumatlarından istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** Aparılan tədqiqat işinin məhdudiyyətləri sırasında ən aşkar problem keçmiş dövrün statistik məlumatlarının rus dilində olmasıdır. Digər əsas məhdudiyyət isə keçmiş dövrün rəsmi statistik materiallarına əlçatanlığın nisbətən mürəkkəb olması və təhlil olunması nəzərdə tutulan dövr üçün statistik-maliyyə ilinin son ilinin 1985-ci ili əhatə etməsidir.

**Tədqiqatın elmi yeniliyi:** Təqdqiqat zamanı keçmiş dövrün təhlilləri ilə yanaşı gələcək dövrdə yenidən qurulması vacib olan ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı sektorunun elmi-texniki tərəqqinin yenilikləri ilə inkişafına yönəlik istiqamətləri təklif olunmuşdur. Əsas elmi yenilik kimi iqtisadi rayonda aeroponik və hidroponik və eləcə də urban təsərrüfatçılıq formalarının yaradılması ağıllı kənd və şəhər konsepsiyası ilə həmahənglik təşkil edəcəkdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Dissertasiya işinin tədqiqatı zamanı aparılan araşdırmalar nəticəsində əldə olunan nəticələr iqtisadi rayonun keçmiş dövrdə ölkəmizin aqrar sektorun məhsulları istehsalında böyük paya malik olduğu təhlil vasitəsilə aşkara çıxarılmışdır. Bu təhlillər gələcəyə yönəlik

təkliflərlə birgə iqtisadi zonanın inkişafının formalaşdırılmasında mühüm praktiki rol oynayacaqdır. Tədqiqat vasitəsilə əldə olunan nəticələr əsasında aqrar sektorun innovativ əsaslarla inkişaf etdirilməsi ön plana çıxarılmışdır. Nəticələrin əsas tətbiq sahəsi məhz əkinçilik olmuşdur, xüsusilə əkinçilikdə hidroponik və aeroponik kimi müasir üsulların tətbiqi əsas kənd təsərrüfatı məhsulları ilə təminat səviyyəsinə öz əhəmiyyətli töhfəsini verəcəkdir. Tədqiqat zamanı beynəlxalq təcrübənin, Azərbaycanda ərzaq təhlükəsizliyinin müasir vəziyyətinin təhlili və eləcə də işğaldan öncəki dönəm üçün Qarabağ iqtisadi rayonun kənd təsərrüfatının və iqtisadi durumunun öyrənilməsi gələcək perspektiv inkişaf dövrü üçün elmi-nəzəri baza təşkil edəcək və praktiki nəticələrin əldə edilməsinə rəvac verəcəkdir.

# I FƏSİL. ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI VƏ ELMİ - METODOLOJİ PROBLEMLƏRİ

## 1.1. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial – iqtisadi mahiyyəti, əsas parametrləri və meyarları

Ərzaq təhlükəsizliyi dövlətlərin milli və iqtisadi təhlükəsizliyinin əsasını təşkil edir. Iqtisadi təhlükəsizlik iqtisadi müstəqilliyin fundamental özülü kimi və daha da irəli getsək görə bilərik ki, iqtisadi müstəqillik isə öz növbəsində siyasi müstəqilliyin qarantı kimi çıxış edir. Həmçinin, ərzaq təhlükəsizliyi ölkələrin milli iqtisadiyyatının davamlı və dayanıqlı inkişafında mühüm rol oynayır və dövlətlərin gələcək iqtisadi və sosial inkişafının əsaslarını təşkil edir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ərzaq təhlükəsizliyini təsvir etmək, müəyyənləşdirmək üçün ona belə bir tərif vermişdir: Ərzaq təhlükəsizliyi – Produktiv və sağlam həyat tələblərini qarşılamaq üçün yetərli (kifayət qədər) qida məhsullarına həm fiziki həm də iqtisadi çıxışın olması deməkdir (https://www.fao.org/3/y4671e/y4671e06.htm). Davamlı inkişafın mərkəzində dayanan ərzaq təhlükəsizliyinin təmin olunmuş hesab olunması üçün beynəlxalq təşkilatlar olan Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və FAO tərəfindən müxtəlif parametrlər müəyyən olunmuşdur. ÜST-ə görə ərzaq təhlükəsizliyi 3 parametrlə təyin olunur:

1) Ərzağın mövcudluğu;
2) Ərzağa əlçatanlıq səviyyəsi;
3) Ərzağın istifadəsi və sui-istifadəsi.

BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı olan FAO isə ÜST-ün qəbul etdiyi parametrlərə sabitliyi də əlavə edərək qeyd edir ki, qəbul olunan 3 parametrin zaman içərisindəki sabitliyi mütləq nəzərə alınmalıdır (https://www.fao.org/fileadmin/templates/wsfs/Summit/Docs/Final_Declaration/WSFS09_Declaration.pdf). Beləliklə, ərzaq təhlükəsizliyi 4 parametrlə müəyyənləşdirilir:

1. Ərzaq mövcudluğu səviyyəsi – istehsal, paylanma və mübadilə yolu ilə ərzaq təminatının təchiz edilməsini özündə ehtiva edir. Qida (ərzaq) məhsullarının istehsalına müxtəlif faktorlar, o cümlədən torpaq mülkiyyəti və istifadəsi, torpaq

mülkiyyətinin idarə edilməsi; məhsul seçimi, yetişdirilməsi və idarə edilməsi; heyvandarlıq, onun çoxaldılmasının idarəedilməsi; və məhsul yığımı təsir göstərir. Ərzaq təhlükəsizliyinə nail olmaq üçün ölkələrin heç də həmişə təbii resurslara malik olması vacib deyil. Bu baxımından nümunə kimi təbii resursları qıt lakin ərzaq təhlükəsizliyi baxımından zəngin ölkələr olan Yaponiya və Sinqapuru göstərmək olar.

Qida (ərzaq) məhsullarının mövcudluq səviyyəsinin təmin edilməsinə təsir göstərən ikinci faktor isə onun paylanmasıdır. Qida məhsullarının saxlanması, emalı, daşınması, qablaşdırılması və marketinqi onun mövcudluğuna birbaşa təsir edir. Burada daşınmanın xüsusi önəmini vurğulamaq lazımdır. Çünki zəif nəqliyyat infrastrukturunun mövcudluğu su və gübrə təchizatının qiymətini, eləcə də qida məhsullarının milli və qlobal bazarlara daşınmasının qiymətini artıra bilər.

Qeyd etmək lazımdır ki, müasir dünyada adambaşına düşən dünya ərzaq ehtiyatları əslində bütün dünya əhalisinin ərzağa olan tələbatına adekvatdır başqa sözlə onu ödəyə biləcək səviyyədədir. Burada isə artıq kritik nöqtə adlandırılan ərzaq məhsullarına əlçatanlıq məsələsi meydana çıxır.

2. Ərzaq əlçatanlığı (əlyetərlilik) - ərzaq məhsullarının əhalinin böyük əksəriyyəti tərəfindən satın alına bilmə səviyyəsi ilə xarakterizə olunur. BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi qeyd edir ki, aclıq və qida çatışmazlığının səbəbləri çox vaxt ərzaq qıtlığından deyil, adətən yoxsulluq səbəbindən mövcud qidaya çıxışın mümkünsüzlüyündən irəli gəlir. Yoxsulluq ərzağa çıxışı məhdudlaşdıra, eyni zamanda fərdin və ya ev təsərrüfatlarının ərzaq qiymətlərindəki artımlara qarşı həssaslığını artıra bilər.

Ərzaq əlçatanlığı ərzaq məhsullarını əldə etmə baxımından iki fərqli qrupa ayrılır: birbaşa və iqtisadi.

Birbaşa çıxış ev təsərrüfatlarının heç bir kənar mənbəyə ehtiyac duymadan insan və material resurslarından istifadəsi nəticəsində məhsul istehsalına əsaslanır. İqtisadi çıxış isə fərdlərin və ev təsərrüfatlarının hazır ərzaq məhsullarını satın alması ilə əsaslandırılır.

ABŞ Kənd Təsərrüfatı Departamenti isə əlavə edir ki, ərzaq məhsullarına çıxış fövqəladə vəziyyətlər üçün nəzərdə tutulan qida ehtiyatına, oğurluq, tullantı qida məhsullarına və bu kimi digər mübarizə strategiyalarına müraciət etmədən yalnız sosial cəhətdən məqbul hesab olunan yollarla mövcud olmalıdır.

3. Qida istifadəsi – Ərzaq təhlükəsizliyinin növbəti parametri qidadan istifadədir ki, bu da fərdlər tərəfindən qida maddələrinin mübadiləsinə əsaslanır. Yeyiləcək məhsullar insanlar tərəfindən onların həyat və sağlamlığı üçün faydalı, təhlükəsiz, ekoloji cəhətdən təmiz kimi qruplaşdırılaraq seçilir və qida kimi qəbul olunur. Məlumdur ki qida məhsullarının kəmiyyət və keyfiyyətinə müxtəlif amillərin güclü təsiri vardır. Bu baxımdan insanlar qida dəyəri yüksək olan məhsullara üstünlük verirlər. Həmçinin sanitar baxımından məhsulun təmiz olması insanların müxtəlif xəstəliklərə tutulmasının qarşısını alır. Bu kontekstdə qeyd etmək lazımdır ki, ərzaq təhlükəsizliyinin bu pilləsinin daha mükəmməl təşkil edilməsi üçün insanları qida məhsulları və onların hazırlanması ilə bağlı maarifləndirmək olduqca vacib əhəmiyyət daşıyır.

4. Ərzaq təhlükəsizliyinin stabilliyi (sabitliyi) – zaman içərisində ərzaq məhsullarının əldə edilmə qabiliyyətini xarakterizə edir. Ərzaq təhlükəsizliyi bu parametr baxımından keçici, mövsümi və xronik mərhələlərə bölünür.

Keçici dövr ərzaq təhlükəsizliyinin elə bir zaman içərisindəki vəziyyətini xarakterizə edir ki, bu dövrdə təbii fəlakətlər, quraqlıq kimi hadisələr məhsul çatışmazlığı yarada bilir və bunun nəticəsində qida mövcudluğu səviyyəsi azalır. Ərzaq qiymətlərinin qalxması ilə yaranan bazar qeyri-sabitliyi keçici dövr ərzaq təhlükəsizliyinin göstəricisidir və bu kimi hallarda dövlətlər əhalinin fasiləsiz qida məhsulları ilə təminat səviyyəsini qorumaq üçün dövlət ehtiyat anbarlarından müvəqqəti istifadə edirlər. Mövsümi ərzaq çatışmazlığı mövsümü xarakter daşıyır. Xroniki (və ya daimi) ərzaq çatışmazlığı uzun müddətli olması və bu dövrdə yetərli ərzaq məhsullarının olmaması ilə fərqlənir. Xroniki və keçici dövr ərzaq çatışmazlığı bir-birilə əlaqədardır, belə ki, keçici dövr ərzaq çatışmazlığının təkrar baş verməsi insanları xroniki ərzaq çatışmazlığına qarşı daha həssas, daha zəif edir.

Hələ min illər əvvəl ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün dövlətlər tərəfindən müxtəlif addımların atılmasına dair sübutlar var, buna misal olaraq Qədim Çin və Qədim Misirin mərkəzi hakimiyyət orqanlarının qıtlıq zamanı dövlət ehtiyat anbarlarından istifadə etdiyi tarixdən məlumdur.

Ərzaq təhlükəsizliyi dünya səviyyəsində ilk dəfə T.R Maltus tərəfindən tədqiq edilmişdir. İqtisadçı alim əhali artımı ilə məhsul istehsalı arasındakı asılılığı təhlil edərək sübut etmişdir ki, əhali artımı geometrik (həndəsi) silsilə ilə, məhsul istehsalı isə arifmetik şəkildə artır. Sadə şəkildə desək alimin əldə etdiyi nəticə bundan ibarət olmuşdur: məhsul istehsalının artım sürəti əhalinin artım sürətindən zəifdir və bu tendensiya gec ya tez ərzaq çatışmazlığına gətirib çıxaracaqdır (Maltus T., 1798). Maltusun nəzəriyyəsinin 1798-ci ildə ortaya çıxmasına baxmayaraq müasir dünyamızda da öz aktuallığını qorumaqdadır. Hazırki dövrdə bu nəzəriyyə əsasən inkişaf etməmiş ölkələrdə özünü doğruldur, nəzəriyyəyə əyani misal isə Hindistan, Çin, Pakistan və İndoneziyadır.

Dünya sivilzasiyasının həyat qabiliyyətliliyinin davamlılığı üçün yetərli qidaya sahib olmaları bütün insanların sahib olduqları hüquqların ən başlıcasıdır. Təsadüfi deyil ki, BMT 1948-ci ildə "İnsan Haqları Bəyannaməsi"ndə insanların "Yemək Hüququ" olduğunu qəbul etdi və o zamandan bəri bu hüququn bütün digər hüquqlardan istifadə üçün həyati əhəmiyyət kəsb etdiyini təsdiqləmiş oldu (https://www.ohchr.org/Documents/Publications/FactSheet34en.pdf). Yemək hüququ və onun variasiyaları insanların özlərini ləyaqətlə qidalandırmaq hüququnu təmin edən insan hüququdur və kifayət qədər qidanın mövcud olmasını, insanların onu əldə etmə vasitələrinin olduğunu və onun fərdin bəslənmə ehtiyaclarını adekvat şəkildə ödədiyini bildirir. 1961-ci ildə BMT tərəfindən dünyanın ən böyük humanitar hökümətlərarası təşkilatı kimi Dünya Ərzaq Proqramı (WFP) fəaliyyətə başlamışdır. Əsas hədəf olaraq təşkilatın prioriteti aclıq və ərzaq çatışmazlığının aradan qaldırılmasına yönəlik fəaliyyətdir. 2019-cu ilin məlumatına əsasən, təşkilat 88 ölkədə 97 milyon insana xidmət göstərmiş və 2020-ci ildə Nobel Sülh Mükafatı ilə təltif olunmuşdur (https://www.wfp.org/history).

Ərzaq təhlükəsizliyinin böyük önəm daşıdığı və aclıq vəziyyətində olan əhalinin say artımı artıq 1974-cü ildə Romada BMT Baş Assambleyasında "Dünya Ərzaq Konfransının" keçirilməsi ilə nəticələndi. Bu konfransda "Aclıq və Qida çatışmazlığının Aradan Qaldırılması üzrə Ümumdünya Bəyannaməsi" qəbul olundu. Bəyannamə ilə hər bir kişinin, qadının və uşağın fiziki və əqli qabiliyyətlərini tam inkişaf etdirmək və qorumaq üçün aclıq və qida çatışmazlığından azad olmaq kimi ayrılmaz hüququ olduğu təsbit olunmuşdur.

Daha sonra 1996-cı ildə qlobal səviyyədə ilk dəfə olaraq Dünya Ərzaq Samiti keçirildi və beynəlxalq səviyyədə ərzaq (qida) məhsulunun siyasi və iqtisadi təzyiq aləti kimi istifadə olunmaması elan olundu. Sammitin məqsədi ən yüksək siyasi səviyyədə qlobal öhdəliyi yeniləyərək bütün insanlar üçün davamlı ərzaq təhlükəsizliyinə nail olmaq və aclıq, qida çatışmazlığını aradan qaldırmaq idi.

XX əsrin 90-cı illərində 1.9 milyard insanın səfalət, yoxsulluq içində yaşaması beynəlxalq ictimaiyyəti təcili və təxirəsalınmaz tədbirlər görməyə məcbur etdi. XXI əsrin strategiyasının formalaşdırılması istiqamətində BMT-nin 2000-ci ildə keçirilən toplantısında təşkilatın 191 üzv ölkəsi və 22 beynəlxalq təşkilatın iştirakı ilə 2000-2015-ci illəri əhatə edən Minilliyin İnkişaf Hədəfləri (MİH) müəyən olunaraq qəbul edildi. Özündə 8 hədəfi ehtiva edən MİH-in ilk hədəfi ifrat yoxsulluq dərəcəsinin və aclığın əsaslı surətdə azaldılması idi. Proqramın tətbiqi nəticəsində dünyada ifrat yoxsulluq, səfalət və aclıq içində yaşayan insanların sayı azalaraq 1990-cı illərdə 1.9 milyard təşkil edirdisə artıq bu rəqəm 2015-ci ildə 836 milyona enmişdir (https://www.un.org/millenniumgoals/2015_MDG_Report/pdf/MDG%202015%20PR%20Key%20Facts%20Global.pdf).

MİH böyük dərəcədə irəliləyişə nail olsa da 800 milyondan çox insanın yoxsulluq və aclıq vəziyyətində olması hələ də həlli vacib olan və həyati əhəmiyyət daşıyan məsələlərin həllinə istiqamətlənməyi tələb edir. Dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT aclığa və yoxsulluğa son qoyulması istiqamətində növbəti qlobal çağırışı həyata keçirərək bütün dünya ölkələrinin yerinə yetirməsi üçün 2015-ci ildə 17 məqsəddən ibarət Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) tərtib

etmişdir və həmin məqsədlərə 2030-cu ilə qədər nail olunması nəzərdə tutulur. Qeyd olunan 17 məqsəddən ilk ikisi müvafiq olaraq “Yoxsulluğa Son” və “Sıfır Aclıq” başlığı adı altındadır. Yoxsulluğa son adlı birinci məqsəd özündə 5 hədəf birləşdirir (bax: şəkil 1).

**Şəkil 1: DİM-in I məqsədi olan “Yoxsulluğa Son” məqsədinin hədəfləri**




**Mənbə:** https://www.un.org/sustainabledevelopment/poverty/ məlumatları əsasında hazırlanmışdır, (25.11.2021).

Aclıq və qida çatışmazlığına səbəb olan hadisələr 4 qrupda cəmləşdirilir. BMT tərəfindən təyin olunmuş bu səbəblər aşağıdakılardır (https://www.fao.org/3/mt648e/mt648e.pdf):

- Hökümətlərin yeritdiyi uğursuz siyasət;
- İqtisadi və istehsalla bağlı məsələlər;
- Demoqrafik və sosial məsələlər;
- İqlim dəyişikliyi və ətraf mühit.

BMT-nin hesablamalarına görə dünya əhalisinin təxminən 10%-i aclıqdan əziyyət çəkir. Başqa sözlə dünyada hər 9 insandan 1-i aclıq vəziyyətindədir. Bütün bunları nəzərə alaraq qlobal çağırış kimi artıq qəbul olunan DİM-in ikinci məqsədi

“Sıfır Aclıq” 2030-cu ilə qədər dünyada aclığın kökünün kəsilməsini hədəfləməkdədir. Bu məqsəd özündə 8 hədəfi ehtiva edir (bax: şəkil 2).

**Şəkil 2: DİM-in II məqsədi olan “Sıfır Aclıq”məqsədinin hədəfləri**




**Mənbə:** https://www.un.org/sustainabledevelopment/hunger/ məlumatları əsasında hazırlanmışdır, (26.11.2021).

İnsanların qida olaraq qəbul etdikləri məhsullarda qidalanma dəyəri, məhsulun kkal formulu önəmli əhəmiyyətli kəsb edir. Birləşmiş Ştatlar hökümətinə görə bir kişinin gün ərzində orta qidalanma dəyəri 2700 kkal, qadının isə 2200 kkal təşkil etməlidir. FAO isə bir insanın gündəlik ortalama qidalanma dəyərinin 1800 kkal təşkil etməli olduğunu vurğulayır. Burada da qeyd etmək yerinə düşərdi ki, hazırki dövrdə inkişaf etmiş ölkələrdə (İEÖ) insanların gündəlik orta qidalanma dəyəri 3000 kkal dan yuxarı olduğu halda həmin göstərici inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) 2500 kkal civarında, yerdə qalan ölkələr üçün isə FAO-nun qəbul etdiyi ortalama göstəricidən aşağıdır (https://www.medicalnewstoday.com/articles/263028#calories-and-health).

Qidalanma norması eynilə həmin ölkələrin ərzaq təhlükəsizliyi sistemini xarakterizə edir. Yuxarıda qeyd olunan tendensiya – qida normasının insan ehtiyaclarını ödəməsi ərzaq təhlükəsizliyinin təminatından birbaşa asılıdır və ölkələrin inkişaf vəziyyəti ərzaq ilə təmin olunma səviyyəsi ilə üzvi surətdə bağlıdır. İqtisadi cəhətdən böyük inkişafa nail olmuş ölkələr rifah halının da yüksək olması ilə tanınır. Bütün sahələrdə olduğu kimi ərzaq təhlükəsizliyi siyasətində və təmin olunma dərəcəsində də öndədirlər (bax: şəkil 3).

**Şəkil 3: Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində ilk 20-likdə yer alan Avropa ölkələri, 2021**




**Mənbə:** https://impact.economist.com/sustainability/project/food-security-index/Index məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, (05.12.2021).

Beynəlxalq reytinqə baxdıqda şəkil 3-də adları göstərilən ölkələrdən də göründüyü kimi dünya üzrə ilk 20-likdə adı olan ölkələrin 70%-i, yəni 14-ü Avropanın payına düşür. İlk 5-lik isə müvafiq olaraq İrlandiya, Avstriya, Birləşmiş Krallıq, Finlandiya və İsveçrədir.

Bütün bunları nəzərə alaraq ərzaq təhlükəsizliyinin təmin edilməsində dünya ölkələrinin təcrübəsinin nəzərə alınması, ərzaqla təminat səviyyəsinin yüksək səviyyəyə çatdırılması istiqamətində əməli praktki addımların atılması müasir dünyanın qlobal çağırışıdır.

## 1.2. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin dünya təcrübəsi

Ərzaq təhlükəsizliyinin təmin olunmasında müasir təcrübəni, xüsusilə inkişaf etmiş ölkələrin təcrübəsinin nəzərə alınması dayanıqlı və davamlı ərzaq təhlükəsizliyi sisteminin qurulmasında effektiv rol oynaya bilər. 2050-ci ilə qədər dünya əhalisinin 2,2 milyard artacağı gözlənilir ki, bu da dünya fermerlərinin indi istehsal olunandan təxminən 70% daha çox məhsul istehal etməli olacaqları anlamına gəlməkdədir. Buna görə də dayanıqlı ərzaq təhlükəsizliyi siyasəti həyata keçirilməli və qida israfı azaldılmalıdır. Hazırki dövrdə isə hesablamalara görə qlobal səviyyədə istehsal olunan qida məhsullarının 33-50% aralığı heç vaxt yeyilmir və israf olunan bu qida məhsullarının dəyəri trilyon ABŞ dolları ilə ölçülür. Belə ki, hər il Çinin ərazisindən daha böyük ərazi yeyilməyən (israf olunan) ərzaq məhsullarının yetişdirilməsi üçün istifadə olunur. Əgər ərzaq tullantılarını ölkə kimi təsvir olunsa o zaman bu ölkə ABŞ və Çindən sonra istixana qazlarının üçüncü ən böyük emitenti olardı (Clercq D., Vats M. and Biel A., 2018).

Qida məhsullarını ən geniş şəkildə israf edən ölkələr məhz elə inkişaf etmiş ölkələrdir. Hər il ABŞ, Birləşmiş Krallıq və Avropada israf olunan qida məhsullarının ¼ dən də az hissəsi aclıq vəziyyətində olan insanların hər birini yedirməyə kifayət edir. Bu aspektdən ərzaq təhlükəsizliyinin təmin olunmasında effektiv nəticələr əldə etmiş ölkələrin (ABŞ, Kanada, Böyük Britaniya, Fransa, İtaliya, Almaniya) və Avropa İtttifaqı təşkilatının həyata keçirdikləri siyasət və tənzimləmələrinə dərindən öyrənilmə ehtiyacı vardır.

**Amerika Birləşmiş Ştatları**. ABŞ əhalisinin fasiləsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsini özünün prioritet siyasəti hesab edir və ölkədə ərzaq təhlükəsizliyini ən yüksək səviyyədə təmin etmək üçün kənd təsərrüfatı sektorunun inkişafına böyük önəm verir. Ölkənin Kənd Təsərrüfatı Departamenti (KTD) ərzaq təhlükəsizliyinin təmin edilməsinin 4 səviyyəsini müəyyən etmişdir: Yüksək, Marjinal, Az və Daha az səviyyəli ərzaq təhlükəsizliyi (https://hungerandhealth.feedingamerica.org/understand-food-insecurity/). Kənd təsərrüfatına dövlət tərəfindən verilən subsidiyaların, həmçinin, yerli və federal idarəetmə insitutlarının açıqlıq, şəffaflıq və hesabatlılıq prinsipləri əsasında fəaliyyəti bu

sahənin yüksələn xətlə inkişafında təkanverici qüvvələrdir. ABŞ-da rəqəmlə ifadə etsək 2 milyondan çox fermer təsərrüfatı fəaliyyət göstərməkdədir və onların da 3%-ni gəlirləri 1milyon ABŞ dolları və ya daha da çox olan böyük və daha böyük adlandırılan fermer kooperativləri təşkil edir. Fermer təsərrüfatlarının 97%-i ailələrə məxsusdur. Nəhəng fermer kooperativləri 1 məhsul istehsalı üzrə ixtisaslaşırlar ki, bu da praktikada monokultur adlanır. ABŞ KTD-nin hesablamalarına görə 1 ABŞ ferması həm ölkədə həm də qlobal olaraq bütünlükdə 166 insanı qidalandırır.

Kənd təsərrüfatının inkişafında mühüm rol oynayan infrastruktur məsələlərinin – avtomobil, dəmir yolları, hətta hava yollarının bir sözlə geniş nəqliyyat şəbəkəsinin fomalaşdırılması, su resurslarından səmərəli istifadə, texniki-innovativ və onunla əlaqəli məsələlərin, qanunvericiliklə bağlı bağlı hüquqi çərçivənin köklü surətdə yaxşılaşdırılmaşı Birləşmiş Ştatların kənd təsərrüfatının inkişafında baza təşkil edir. Artıq qeyd olunduğu kimi ABŞ kənd təsərrüfatının inkişafında subsidiyalara böyük önəm verir və KTD tərəfindən fermerlərə birbaşa və dolayı olmaqla ümumilikdə 60-dan çox yardım proqramı həyata keçirilməkdədir. Yardımın əksəriyyət hissəsi bitkiçilik məhsullarının istehsalçılarına ödənilir. Üç ən böyük təsərrüfat subsidiya proqramında (Sığorta, Kənd Təsərrüfatının Risk Təminatı və Qiymət İtkisi (zərərinin) Təminatı) ödənilən vəsaitlərin 70 faizindən çoxu yalnız üç məhsulun - qarğıdalı, soya və buğda istehsalçısı olan fermerlərə verilir. (https://www.downsizinggovernment.org/agriculture/subsidies).

**Sığorta**. Bu subsidiya növü 100-dən çox məhsul növünün istehsalının inkişafı üçün maliyyələşməni nəzərdə tutur, lakin ən əsas olaraq qarğıdalı, pambıq, lobya və buğda bu kateqoriyada ən öncül sırada dayanan məhsullardır. Digər aqro proqramlardan fərqli olaraq burada gəlir limiti olmadığından milyoner və milyarder təsərrüfat sahibləri də bu subsidiya növünə müraciət edə bilər. Proqramın təxminən 80%-i gəlir defisitinin, 20%-i isə məhsul defisitinin azaldılmasını nəzərdə tutur.

**Kənd Təsərrüfatının Risk Təminatı Proqramı.** Bu proqram fermerlərə, əgər onların hər akr üzrə gəlirləri və ya alternativ olaraq onların hər akr üzrə ştatlarının gəlirləri meyardan və ya zəmanətli səviyyədən (qiymətlər federal hökümət tərəfindən tənzimlənir) aşağı düşərsə subsidiyalar ödəyir. ABŞ-da fermerlər məhsul

bolluğuna görə qiymətlərin aşağı olmasından narazıdırlar. Ümumiyyətlə, qiymətlər və gəlirlər nə qədər aşağı olarsa, subsidiyalar bir o qədər çox olar. Proqram buğda və qarğıdalıdan noxud və xardal toxumuna qədər 20-dən çox məhsulu əhatə edir.

**Qiymət İtkisi (zərərinin) Təminatı Proqramı**. Bu proqram Konqres tərəfindən müəyyən edilmiş məhsulun referans qiyməti ilə orta satış qiymətinin müqayisəsi əsasında fermerlərə subsidiyalar ödəyir. Məhsulun orta satış qiyməti onun referans qiymətindən aşağı olarsa vəya aradakı fərq nə qədər böyük olarsa, fermerlərə ödəniş də bir o qədər çox olar. Referans qiymətləri yüksək təyin olunduğundan, ödənişlər edilməsi halları çox azlıq təşkil edir. Proqram 20-dən çox məhsulu əhatə edir.

Birləşmiş Ştatlarda aqrar sektorun güclü inkişafı aqrobizneslərin yaranması ilə nəticələnmişdir. Keyfiyyətcə yeni termin olan aqrobiznesin mahiyyəti belədir: Aqrobiznes sənayesindəki şirkətlər qida istehsalının bütün aspektlərini, eləcə də təsərrüfat və təsərrüfatçılıqla bağlı kommersiya fəaliyyətini əhatə edir. Daha dəqiq desək, kənd təsərrüfatı məhsulunu bazara çıxarmaq üçün tələb olunan bütün mərhələləri, yəni istehsal, emal və paylamanı özündə birləşdirir.

Kiçik və orta ölçülü fermer təsərrüfatları getdikcə rəqabətədavamlı qalmaq üçün strategiya olaraq aqroturizm kimi fəaliyyət növündən istifadə edirlər. Aqroturizm ziyarətçiləri əyləndirmək, maarifləndirmək və təsərrüfat üçün gəlir əldə etmək məqsədilə fermaya, rançoya və ya digər kənd təsərrüfatı biznesinə ziyarətçilərin cəlb edilməsi məqsədilə kənd təsərrüfatı istehsalı və ya emalını turizmlə birləşdirən ticarət müəssisəsinin formasıdır. Aqroturizm ABŞ fermerlərinə və rançolarına "İşləyən Ferma Turları" və ya "Öz Meyvə və Tərəvəzlərini Seç" proqramları kimi istirahət və ya təhsil fəaliyyətlərindən gəlir əldə etməyə kömək edir (https://www.ers.usda.gov/amber-waves/2019/november/agritourism-allows-farms-to-diversify-and-has-potential-benefits-for-rural-communities/). Aqroturizm həmçinin kənd yerlərinin iqtisadiyyatını canlandırmaq, ictimaiyyəti kənd təsərrüfatı haqqında maarifləndirmək və kənd təsərrüfatı irsini qoruyub saxlamaq potensialına malikdir. Bundan əlavə, icma yönümlü təsərrüfatlar aqroturizmi cəlbedici variant hesab edirlər, çünki bu, yerli sakinlər üçün daha çox iş yeri imkanları yaradır.

Dayanıqlı kənd təsərrüfatı sistemi ABŞ-da yüksək səviyyəli inkişafı ilə xarakterizə olunur. Dayanıqlı kənd təsərrüfatı dedikdə torpağın münbitliyinin artırılması, sudan istifadənin minimallaşdırılması və çirklənmə səviyyəsinin azaldılması məqsədləri nəzərdə tutulur ki, bu da dünya ölkələri tərəfindən qarşıdakı dövr ərzində dayanıqlı ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından implementasiya olunması zəruri əhəmiyyət daşıyan prioritetlər sırasındadır.

Kənd təsərrüfatının inkişafı nəticəsində yüksək səviyyəli ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı ABŞ ölkədə aztəminatlı şəxs və ailələrin ərzaq əlçatanlığını təmin etmək üçün bir sıra federal ərzaq təhlükəsizliyi proqramı tətbiq etməkdədir. Həmin proqramlar içərisində ən əsasları Əlavə Qida Yardımı Proqramı (ƏQYP) və Zəruri Qida Yardımı Proqramıdır (ZQYP).

**Əlavə Qida Yardımı Proqramı (ƏQYP)** – Birləşmiş Ştatlarda aclıq ilə mübarizə sahəsində həyata keçirilən ən böyük proqramdır. ƏQYP proqramı hər kəs üçün nəzərdə tutulmuşdur: ailələr, yaşlılar, əlillər, işsizlər və ya işləyən insanlar, veteranlar və ya həqiqi hərbi xidmətdə olanlar. Ailələr və ya şəxslər iştirak üçün proqramın internet saytında və ya mobil aplikasiyasında tələb olunan məlumatları doldurur, 30 günlük yoxlamadan sonra isə müsahibəyə çağırılır və sonrasında bütün məlumatların doğruluğu şəraitində iştirakçıya çevrilirlər. Proqrama qoşulmaq üçün hər bir ştat tərəfindən müəyyən tələblər formalaşdırılmışdır. Lakin federal hökümət bütün ölkə üçün ümumi olaraq aşağıdakı tələbləri müəyyənləşdirmişdir (https://www.investopedia.com/search?q=SNAP):

- Ailələrin gəlirləri nəzərdə tutulan səviyyədən aşağı olmalıdır;
- Bankdakı əmanətlərin məbləği və ya aktivləri müəyyən olunan məbləğdən az olmaldır;
- Ailə üzvlərindən ən azı birinin ABŞ vətəndaşlığı və ya immiqrasiya statusu olmalıdır.

ƏQYP-dən istifadə edən insanlara debet kartına bənzər müavinət kartı verilir və bu karta yerli mağazalardan və ya fermer bazarlarından ərzaq məhsulları almaq üçün aylıq vəsait köçürülür. Köçürülən vəsaitin həcmi ailə üzvlərinin sayından və gəlirdən asılı olaraq dəyişir. Bu vəsaitlə ailələr və ya şəxslər yalnız meyvə və

tərəvəz, ət, balıq və quş əti, süd məhsulları, çörək və un məmulatları, qəlyanaltılar və içkilər, toxum və bitkilər (yetişdirib qidalanma məqsədilə istifadə üçün) ala bilərlər. ƏQYP vasitəsilə alınması mümkün olmayan məhsullara aiddir:Alkoqol və tütün məmulatları; Qeyri-qida məhsulları, məsələn təmizlik ləvazimatları, gigiyenik məhsullar, ev heyvanları üçün yeməklər, körpə üçün ləvazimatlar, vitaminlər və dərmanlar.

ƏQYP –nin məqsədi vəsaiti alan şəxslərin ərzaq təminatını yaxşılaşdırmaqla həmin şəxslərin hər hansı digər fəaliyyət yolu ilə əldə edə biləcəyi məbləği tibbi, kommunal və kirayə kimi xərcləri ödəyə bilməsinə şərait yaratmaqdır.

**Zəruri Qida Yardımı Proqramı (ZQYP)** – bu proqramda ƏQYP-dan fərqli olaraq ailələrə və ya şəxslərə heç bir vəsait ödənilmir. ABŞ Kənd Təsərrüfatı Departamenti proqram vasitəsilə müxtəlif qida məhsulları o cümlədən yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları alaraq ştatlar üzrə paylayıcı agentliklərə verir. Hər bir ştat isə alınan məhsulları İcma Fəaliyyəti Agentlikləri arasında bölüşdürür və həmin agentliklər ərzaqları birbaşa aztəminatlı ailələrə çatdırır. Paylanma meyarı hər ştatda müəyyən olunmuş say əsasında həyata keçirilir. ZQYP ölkə üzrə aşağı gəlirli yəni, gəlirləri yoxsulluq səviyyəsindən aşağı olan şəxslərin, işsiz və yaşlı insanların qida təminatının yaxşılaşdırılmasına xidmət etməkdədir. Proqram 120 adda məhsulu o cümlədən, meyvə-tərəvəz, ət, balıq, quş əti, yumurta, süd, qoz-fındıq, pendir, dənli bitkilər həmçinin düyü, un məmulatları, makaron kimi məhsulları əhatə edir. ZQYP-nın maliyyələşdirilməsi "Təsərrüfat qanunu" ilə hər 5 ildən bir həyata keçirilir (https://www.fns.usda.gov/tefap/tefap-fact-sheet).

**Kanada.** Kənd təsərrüfatı Kanada iqtisadiyyatının önəmli sektorlarından biridir və ölkə ərazisinin 7%-i təsərrüfatçılıq üçün əlverişlidir. Buna baxmayaraq Kanadanın kənd təsərrüfatı sektoru təkcə ətraf mühit perspektivindən baxsaq yüksək standartlara sahib, dünya səviyyəli bir sistemə malikdir. Kanadada kənd təsərrüfatı məhsulları istehsalında ən çox üstünlük təşkil edən buğda, kanola, meyvə-tərəvəz, soya paxlası, heyvandarlıqda isə iribuynuzlu mal-qara və quşçuluqdur. Dövlətin kənd təsərrüfatı və ətraf mühit siyasəti insan sağlamlığının və ekosistemin müdafiəsinə hesablanmışdır. Ərzaq təhlükəsizliyinin təminatında kənd

təsərrüfatının böyük rolu olduğu nəzərə alınaraq Kanadada bu sahədə inkişafı təmin etmək üçün innovativ texnologiyalardan istifadə olunur. Burada təsərrüfatlarda GPS texnologiyasından istifadə olunur ki, bu da təsərrüfatlarda bitkilərin qida maddələrinin səviyyəsini və tarlanın müxtəlif hissələrində məhsuldarlığı izləmək üçün əlverişli şərait yaradır. Beləliklə, bu sistem fermerlərə bitkilərə normativ gübrə verməyə kömək edir və gübrənin axması riskini azaldır.

Federal və yerli idarəetmə orqanları tərəfindən aqro sferanın daim yüksələn xətlə inkişafı üçün bır sıra proqramlar həyata keçirilməkdədir. Aqro iqtisadiyyatda drayver hesab edilən əsas 2 proqramdır (https://agriculture.canada.ca/en/agricultural-programs-and-services):

**Kanada Kənd Təsərrüfatı Kreditləri Aktı (**KKTKA**)** Proqramı fermerlərə və kənd təsərrüfatı kooperativlərinə kreditlərin əlçatanlığını artırmaq üçün nəzərdə tutulmuş kredit zəmanət proqramıdır. Fermerlər bu kreditlərdən təsərrüfatları yaratmaq, təkmilləşdirmək və inkişaf etdirmək üçün, kənd təsərrüfatı kooperativləri isə əkinçilik məhsullarını emal etmək, paylanması təmin etmək və ya bazara çıxarmaq üçün (marketinq xərcləri) istifadə edə bilərlər. KKTKA Proqramı vasitəsilə hökümət kənd təsərrüfatı sektorunun yenilənməsini dəstəkləyir və kooperativlərə bazar imkanlarından daha yaxşı istifadə etməyə imkan yaradır. Proqrama əsasən, federal hökumət kreditora verilmiş uyğun kredit üzrə xalis zərərin 95%-nin ödənilməsinə zəmanət verir. Hər hansı bir təsərrüfat əməliyyatı üçün maksimum ümumi kredit limiti 500.000 ABŞ dollarıdır. Bu çərçivədə kreditlərin maksimum həddi verilə bilər:

- Torpağın alınması, binaların tikintisi və ya yenidənqurulması üçün 500.000 dollar;
- Konsolidasiya/yenidən maliyyələşdirmə daxil olmaqla, bütün digər kredit məqsədləri üçün 350.000 ABŞ dolları.

Praktika üzərində göstərsək, fermer traktor üçün proqram çərçivəsində 300.000 dollar kredit alarsa, o, hələ də torpaq alqı-satqısı və ya bina təmiri üçün 200.000 dollara qədər vəsait ala bilər. Bunu da bölüşdürsək kənd təsərrüfat avadanlığı və mexanizmləri üçün 50.000 dollara qədər, torpaq alınması və ya bina təmiri üçün

150.000 dollara qədər borc əldə edə bilər. Kənd təsərrüfatı kooperativləri üçün isə maksimum ümumi kredit limiti 3 milyon ABŞ dollarıdır.

**Kənd Təsərrüfatı Təmiz Texnologiya Proqramı** (KTTTP). Kanada Hökumətinin "Sağlam Ətraf mühit və Sağlam İqtisadiyyat" siyasətinin bir hissəsi olaraq, bu yeni proqram təmiz texnologiyanın inkişafı və mənimsənilməsi üçün əlverişli mühit yaratmaq məqsədini hədəfləyir. Dekarbonlaşmış iqtisadiyyata nail olmaq, yaşıl enerji və enerji səmərəliliyi, təmiz kənd təsərrüfatı, bioiqtisadi inkişaf, Kanadanın kənd təsərrüfatı və aqro-ərzaq sektorunda davamlı artımı təşviq etmək proqramın əsas müddəalarıdır. Bu proqramla yanaşı federal hökümət fermerlərə məsləhət-konsultasiya, texniki dəstək kimi dəstəkləyici treninqlər də həyata keçirir.

Ərzaq təhlükəsizliyini yerli kənd təsərrrüfatı məhsulları hesabına təmin edən Kanadada kənd təsərrüfatının yüksək səviyyədə inkişaf etdirilməsi onunla əlaqəli və eləcə də əlaqəsi olmayan sahələrin inkişafında rol oynayır. Təmiz yanacaq növü kimi alternativ bərpa olunan mənbələr hesabına (heyvan və bitki yağları) istehsal edilən biodizel buna əyani sübutdur. 1 buşel (27.21 kq) soya paxlası 1.5 qallon (5.67 litr) biodizelə bərabərdir. Hazırkı biodizel bazarları isə kütləvi tranzit, dəniz nəqliyyatı və mədənlər kimi önəmli sahələrdir. Həmçinin avtomobil istehsalçıları da avtomobilin bəzi hissələrini qarğıdalı və soya paxlası kimi bitkilərlə təmin edə bilirlər. Misal olaraq göstərilə bilər ki, Ford avtomobillərinin oturacaqlarında soya paxlasından hazırlanmış süngərdən istifadə edilir.

Kanada əhalisinin kənd təsərrüfatı sektorunda gəlirin az və ya fermer təsərrüfatlarının ölkənin nibətən uzaq əyalətlərində yerləşməsi səbəbindən çalışmaq istəməməsi bu sektorda immiqrantların rolunun artması ilə nəticələnmişdir (https://www150.statcan.gc.ca/n1/en/pub/96-325-x/2019001/article/00003-eng.pdf?st=E8zCJBWe). Xüsusilə Çin və ABŞ-dan gələn immiqrantların sayı çoxluq təşkil edir. Hər il demək olar on minlərlə immiqrant fermer təsərrüfatları tərəfindən işə götürülür.

**Böyük Britaniya**. Britaniya yüksək səviyyədə inkişaf etmiş sənayesi ilə tanınmış olsa da kənd təsərrüfatı sektorunun inkişafı da ölkənin ümumi inkişaf səviyyəsi ilə tarazlıq təşkil etməkdədir. Ərazisinin 71%- i kənd təsərrüfatı ilə məşğul

olmağa imkan verən Birləşmiş Krallıqda kənd təsərrüfatı məhsulları ilə özünü təmin etmə səviyyəsi 60% civarındadır. Krallıqda 140 mindən çox fermer təsərrüfatı vardır və kənd təsərrüfatı məhsulları istehsalında əsas üstünlük təşkil edən buğda, arpa, meyvə-tərəvəz, və bağçılıq məhsulları olmuşdur. Birləşmiş Krallıqda idxalın ixracı üstələməsinin səbəbi isə ərazinin iqliminə görə bəzi bitkilərin yetişdirilməsinin qeyri mümkünlüyüdür.  Buna baxmayaraq tək aqro sektor onunla əlaqəli digər sektorlarla birgə krallığın iqtisadiyyatına  100 milyarddan çox müsbət impuls qatır. Aqro-qida sənayesi 3 milyondan çox iş yerinin olmasına, bu isə ərzaq təhlükəsizliyinin təmin olunması aspektindən yoxsulluğun aradan qaldırılmasına mühüm töhfə verməkdədir.

Britaniya höküməti kənd təsərrüfatı bacarıq və vərdişlərinin formalaşdırılması üçün fermerlərə eləcə də sektorda yeni başlayanlara dəstək vermək məqsədilə kurslar, treninqlər təşkil edir. Burada kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə dövlət proqramları həyata keçirilməkdədir. Vahid Təsərrüfat Ödənişi subsidiya proqramı ilə təxminən hər hektara 305 ABŞ dollarına yaxın  vəsait fermerlərə ödənilir. Hər təsərrüfata təqribən 30 min ABŞ dollarından artıq vəsait düşür ki, bu vəsaitin içində 4 min ABŞ dollarına yaxın məbləğ ətraf mühit subsidiyası olaraq meşəlik sahələrin salınması məqsədilə verilir. “Kənd İnkişaf Proqram”ları çərçivəsində kənd yerlərinin iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, o cümlədən, fermer təsərrüfatlarının qurulması üçün fərdlərə kreditlər ayrılması, təsərrüfatların maliyyələşdirilməsi implementasiya olunur (https://www.gov.uk/guidance/rural-development-programme-for-england-leader-funding).

Brexit anlaşması ilə Avropa İttifaqından ayrılan Böyük Britaniya artıq ittifaq çərçivəsindən kənar kənd təsərüfatı siyasət və proqramı formalaşdırmışdır. (https://www.gov.uk/government/news/government-unveils-path-to-sustainable-farming-from-2021). Hökümət 2021-2024-cü ilər üzrə kənd təsərrüfatı keçid planlarını, 2021-2027-ci illər məqsəd və hədəflərini müəyyənləşdirmişdir. Yeni planlara əsasən 2028-ci ilə qədər İngiltərədəki fermerlərin subsidiya olmadan davamlı olaraq sağlam qida məhsulları istehsal edə bilmələrini təmin etmək, ətraf mühiti, heyvanların

sağlamlığını və qidalanmasını yaxşılaşdırmaq və karbon emissiyalarını azaltmaq üçün addımlar atılması hədəflənməkdədir.

**Fransa**. Fransa kənd təsərrüfatı sektorunda taxıl, heyvandarlıq, şərabçılıq, meyvə-tərəvəz və bağçılıq məhsulları üstünlük təşkil edir. Öz qonşuları İngiltərə və Almaniya ilə müqayisədə kənd təsərrüfatının inkişafına daha çox diqqət yetirir. Üzümçülüyün inkişafına görə Avropada İtalyadan sonra II yerdə qərarlaşan Fransa dünyada iri şərab istehsalçılarından sayılır. Kənd təsərrüfatı məhsulları ixracında tək şərab məhsullarının dəyəri 2020-ci ildə 9 milyard ABŞ dolları olmuşdur ki, bu da ölkənin şərab istehsalı üzrə dünya liderlərindən birinə çevrildiyini deməyə əsas verir.

Ölkədə 400 mindən çox fermer təsərrüfatı vardır və aqrar sektorda çalışanların sayı 800 mindən çoxdur (https://ec.europa.eu/info/sites/default/files/food-farming-fisheries/farming/documents/agri-statistical-factsheet-fr_en.pdf). Fransada kənd təsərrüfatının inkişaf etdirilməsi qeyri – mərkəzləşdirilmiş şəkildə, inzibati əyalətlər tərəfindən qəbul olunan proqramlar vasitəsilə həyata keçirilir və ümumi ölkə üzrə 27 belə proqram mövcuddur. Ümumi kontektdə proqramların məqsədləri aşağıdakılardır:

- Təbii ehtiyatları qoruyub saxlamaqla kənd təsərrüfatı subyektlərinin istehsal etdiyi məhsulların həcmini artırmaq, istehsal amillərinin maya dəyərini azaltmaqla təsərrüfatların rəqabət qabiliyyətini artıran yeni istehsal üsullarını işləyib hazırlamaq.
- Təsərrüfatların yaradılmasını, köçürülməsini və yerli iqtisadi şəraitə adaptasiyanı, təsərrüfatların nəsil yenilənməsini təşviq etmək.
- Təbii sərvətlərin qorunması, bərpası və idarə edilməsinə yönəlmiş tədbirləri həyata keçirməklə təbii mühiti qorumaq.

**İtaliya**. Kənd təsərrüfatı İtaliyanın əsas iqtisadi sektorlarından biri olmaqla həm də ölkəni Aİ-nin ən böyük kənd təsərrüfatı istehsalçılarından birinə çevirmişdir. Ölkənin şimal hissəsi əsasən taxıl, soya, ət və süd məhsulları istehsal edir, cənubda isə meyvə, tərəvəz, zeytun yağı, şərab və dəmyə üsulu ilə yetişdirilmiş buğda istehsal olunur. İtaliyanın əsas kənd təsərrüfatı məhsulları istehsalında buğda, qarğıdalı, kartof, düyü, yulaf, şəkər çuğunduru və soya liderdir (Annuario Statistico Italiano 2021).

Kənd təsərrüfatı məhsulları ixracında (2020) zeytun yağı, pendir, makaron, kofe, balıq əti və ət məhsulları, şərab mühüm yer tutur.

İtaliyada əksər təsərrüfatlar kiçikdir, orta ölçüsü on bir hektardır. Ölkənin sənayesi, o cümlədən qida emalı sektoru, xammal idxalından çox asılıdır. Bununla belə İtaliya Aİ-nin ən böyük kənd təsərrüfatı istehsalçılarından və qida emalçılarından biridir. Italiya "Kənd Yerlərinin İnkişafı" proqramı ilə kənd təsərrüfatını inkişaf etdirir. Bu proqramın əsas müddəaları aşağıdakılardır (European Comission Statistical Factsheet: İtaly, 2021):

- Kənd təsərrüfatında elmi təcrübənin transferinin və innovasiyanın təşviq edilməsi (innovasiyanın, əməkdaşlığın, bilik bazasının gücləndirilməsi);
- Təsərrüfatların istehsal gücü, rəqabət qabiliyyəti və davamlı meşə idarəçiliyinin gücləndirilməsi (iqtisadi performans, restrukturizasiya və modernləşdirmə);
- Kənd təsərrüfatı məhsullarının emalı və marketinqi, və risklərin idarə edilməsi daxil olmaqla qida zəncirinin effektiv təşkili;
- Kənd təsərrüfatı və meşə təsərrüfatında ekosistemlərin bərpası, mühafizəsi və gücləndirilməsi;
- Kənd təsərrüfatı, qida və meşə təsərrüfatı sektorlarında resurs səmərəliliyi və aşağı karbon və iqlim dəyişikliyinə uyğun dayanıqlı iqtisadiyyata keçid;
- Sosial inklüzivlik, yoxsulluğun azaldılması və kənd yerlərində iqtisadi inkişafın təmin edilmməsi.

**Almaniya**. Almaniya sənayeyə daha böyük önəm verdiyi üçün kənd təsərrüfatı məhsullarının üçdə birindən çoxunu idxal edir və əsas kənd təsərrüfatı məhsulları dənli bitkilər və şəkər çuğundurudur. Dənli bitkilər arasında arpanın istehsalı daha yüksəkdir və bu sahədə Almaniya İspaniya ilə rəqabət içərisindədir. Sonrakı yerlərdə isə buğda və çovdar bitkisi Almaniyanın kənd təsərrüfatı bitkiləri sırasında liderdir. Demək olar ki, bütün böyük şəhərlərin ətraflarında meyvə bağları və tərəvəzçilik təsərrüfatları salınmışdır.

Arpa və çovdarın yüksək məhsuldarlığı müxtəlif növ spirtli içki istehsalının inkişafını şərtləndirmişdir və eləcə də üzüm bağlarının çoxluq təşkil etməsi

şərabçılığın inkişafına təkan vermişdir. Lakin arpa və buğdadan əldə olunan spirtli içki Almaniyada daha geniş istehlak olunduğundan onun istehsal səviyyəsi də çox yüksəkdir.

Almaniya eyni zamanda üzüm bağlarına səyahət turu təşkil etməklə kənd təsərrüfatının aqroturizm imkanlarından faydalanır. Almaniyada üzümün əsasən *"Riesling", "Müller-Thurgau", "Pinot noir", "Pinot gris"* kimi növləri yetişdirilir. Ölkədə üzüm sahələri təxminən 100 min hektara yaxın əraziyə malikdir (https://www.germanwines.de/fileadmin/user_upload/Website/Service/Downloads/Statistik_2021-2022.pdf). Almaniya əsasən Avropa İttifaqı tərəfindən qəbul olunan kənd təsərrüfatı siyasət və proqramlarını həyata keçirir.

**Avropa İttifaqı (Aİ).** Kənd təsərrüfatı Avropa İttifaqının cəmiyyətinin, ətraf mühitinin və iqtisadiyyatının mərkəzində özünəməxsus yer tutur. İttifaq "Ortaq Kənd Təsərrüfatı Siyasəti" (OKS) ilə üzv ölkələrdə kənd təsərüfatının inkişafını dəstəkləyir. OKS-in əsas hədəfləri aşağıdakılardır (https://ec.europa.eu/info/food-farming-fisheries/key-policies/common-agricultural-policy/cap-glance_en):

- Fermerləri dəstəkləmək və kənd təsərrüfatı məhsuldarlığını artırmaq, münasib qiymətə ərzaq məhsulları ilə sabit təminatı təmin etmək;
- İqlim dəyişikliyi və təbii ehtiyatların davamlı idarə edilməsi ilə əlaqədar mübarizəyə yardım etmək;
- Aİ daxilində kənd yerlərini və landşaftları qorumaq;
- Kənd təsərrüfatı, aqro-qida sənayesi və əlaqəli sektorlarda iş yerlərini təşviq etmək.

Biznes qeyri-müəyyənlikləri və kənd təsərrüfatının ətraf mühitə təsiri dövlət sektorunun aqrar sahədə rolunu əsaslandırır. Bununla əlaqədar OKS-in 3 əsas tənzimləmə aləti vardır:

1) Gəlir dəstəyi – birbaşa ödənişlər vasitəsilə gəlir sabitliyini təmin edir, əkinçiliyin ekoloji cəhətdən təmiz olmasına və kənd yerlərinə qayğı məsələn meşəlik sahələrin salınması kimi işlərə görə mükafat verir;

2) Bazar tənzimlənməsi – tələbin qəfil azalması və ya bazarda müvəqqəti olaraq həddindən artıq təklif nəticəsində qiymətlərin düşməsi kimi bazar vəziyyətlərini tənzimləmək;

3) Kənd yerlərinin inkişafı - kənd yerlərinin üzləşdiyi xüsusi ehtiyacları və problemləri həll etmək üçün milli və regional proqramlarla kənd inkişafı tədbirlərini maliyyələşdirmək.

Bütün əsas iqtisadi göstəricilər ölkələrin rifah və iqtisadi cəhətdən inkişaf səviyyəsini xarakterizə etdiyi kimi ərzaq təhlükəsizliyinin təmin olunmasına da birbaşa təsir göstərməkdədir.

## 1.3. Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinin müasir vəziyyəti

XX əsrin 90-cı illərində Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiaları fonunda başlatdığı muharibə nəticəsində torpaqlarımızın 20%-i, indiki Qarabağ (Tərtər, Füzuli və Ağdamın bir qismi, Ağcabədi və Bərdə istisna olmaqla) və Şərqi Zəngəzur iqtisadi rayonlarının əraziləri işğal altına düşmüşdü. İşğal faktı ümumilikdə ölkə iqtisadiyyatına, məşğulluğa, kənd təsərrüfatına və əhalinin rifah halına birbaşa mənfi təsir göstərmiş idi. Bununla belə Ulu Öndər Heydər Əliyevin 1993-2003-cü illərdə Azərbaycana rəhbərlik etdiyi dönəmdə həyata keçirdiyi iqtisadi siyasət nəticəsində ağır iqtisadi durum sabitləşmişdir. Ümummili liderin inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən davam etdirilir və bu siyasət 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnmişdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Respublikasının milli və iqtisadi təhlükəsizlik strategiyasının vacib komponentidir və bu sahədə uğura və inkişafa nail olmaq üçün  dövlət tərəfindən bütün iqtisadi sferaları əhatə edən irimiqyaslı iqtisadi proqram, strategiya və islahatlar həyata keçirilməkdədir. Ərzaq təhlükəsizliyinə birbaşa təsir göstərməkdə olan bu proqramlar aşağıdakılardır:

- Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı;
- Regionların Sosial - İqtisadi İnkişafı üzrə Dövlət Proqramları;
- Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı;
- Əhalinin Ərzaq Məhsulları ilə Etibarlı Təminatına dair Dövlət Proqramı;

- Kənd təsərrüfatının inkişaf etdirilməsi ilə əlaqədar olan dövlət proqramları.

Ölkənin ərzaq təhlükəsizliyi proqramı 2001-ci ildə qəbul edilmiş və proqramın əsas hədəfləri yerli istehsal hesabına ərzaq məhsulları ilə etibarlı təmin olunmanı yüksəltmək, idxaldan asılılığı azaltmaq və kənd təsərrüfatı məhsulları istehsalını stimullaşdırmaqla ölkənin bu sahədə ixrac potensialını formalaşdırıb inkişaf etdirməkdir (Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı, 2001).

Ərzaq əlçatanlığının və əhalinin ərzaq məhsuları ilə dayanıqlı və davamlı təminatının yüksəldilməsində infrastruktur məsələlərinin və onların yarada biləcəyi problemlərin aradan qaldırması istiqamətində 2004-cü ildən etibarən 5 illik dövrü əhatə edən regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar dövlət proqramları icra edilməkdədir. Proqramın həyata keçirilməsi nəticəsində enerji təminatının, o cümlədən, bütün kommunal təsərrüfatın təmiri və ya yenidənqurulması, eləcə də onların dayanıqlı təminatı və geniş nəqliyyat infrastrukturunun, şəbəkəsinin formalaşdırılması fermerlərə kənd təsərrüfatı məhsullarının tez və rahat şəkildə bazarlara çıxarmaq imkanı verir.

Yoxsulluğun azaldılması istiqamətində 2003-2005-ci illərdə həyata keçirilən dövlət proqramı ölkə vətəndaşlarının ərzaq əlçatanlığına iqtisadi çıxışını asanlaşdırmaq və respublikada yoxsulluq səviyyəsinin azaldılmasını hədəfləmişdir.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminat səviyyəsini yüksəltəmək məqsədilə dövlətimiz tərəfindən 2008-2015-ci illər ərzində dövlət proqramı həyata keçirilmişdir. Bu proqram BMT tərəfindən qəbul olunmuş MİH-ə nail olmaq məqsədini və aqrar sektorun ölkənin ərzaq təhlükəsizliyində rolunun artırılmasını qarşıya məqsəd olaraq qoymuşdur.

Ötən dövr ərzində həyata keçirilən iqtisadi siyasət və proqramlar nəticəsində ölkədə ÜDM və ÜDM-dən adambaşına düşən məbləğ nəzərəçarpacaq dərəcədə artmışdır. Eyni zamanda əhali sayında müsbət dinamika baş vermişdir. Belə ki, 2020-ci il üzrə Azərbaycanda əhalinin sayı Cənubi Qafqazın (CQ) digər iki ölkəsinin (Gürcüstan, Ermənistan) ümumi əhali sayının iki misli səviyyəsində qərarlaşmışdır.

Əhali sayında olan müsbət dinamika dayanıqlı ərzaq təminatını və əlavə iş yerlərinin olmasını şərtləndirir. Bu kontekstdə respublikamızda yoxsulluğun

azaldılması və iqtisadi inkişaf ilə əlaqədar və digər həyata keçirilən iqtisadi siyasət və proqramlar nəticəsində işsizlik səviyyəsi ölkədə dəfələrlə azaldılmış və 6% civarındadır (https://president.az/az/articles/view/54432).

Ərzaq təhlükəsizliyinin təminatında yerli kənd təsərrüfatı məhsullarının üstünlük təşkil etməsi, başqa sözlə idxaldan asılılığı minimuma endirmək dövlətin aqrar sektorda apardığı siyasətin əsas vektorudur. Bu məqsədlə fermerlərə güzəştli şərtlərlə kreditlərin, subsidiyaların, yanacaq və gübrələrin verilməsi böyük dərəcədə əhəmiyyətə malikdir. Əsas kapitala yönəldilmiş investisiyanın kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə həcmi yüzlərlə milyon manat təşkil edir. Ölkədə kənd təsərrüfatı sektorunu inkişaf etdirmək və yüksək məhsuldarlıq əldə etməklə dayanıqlı və davamlı ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən kənd təsərrüfatı avadanlığı və texnikasının lizinqə verilməsi və ya lizinq yolu ilə satışı həyata keçirilməkdədir. Buraya traktorlar, kultivatorlar, taxılyığan kombaynlar və s. daxildir. Aqrar sektora yönəldilən investisiya, dövlət tərəfindən həyata keçirilən güzəşt siyasəti ölkənin bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə hesablanmışdır. Dövlətimiz tərəfindən heyvandarlıq sahəsinin inkişafı məqsədilə xarici ölkələrdən gətirilmiş yüksək məhsuldarlı heyvan cinsi növlərinin fermerlərə güzəştli şərtlərlə kredit formasında satışı həyata keçirilir. Burada fermerlər heyvanın alınmasına görə 25% ilkin ödəniş edirlər, dövlət isə qiymətin 60%-ni ödəyir və yerdə qalan 15% isə 3 il müddətinə kreditləşdirilir.

Ət və ət məhsulları ilə təminat səviyyəsinin daha yüksəldilməsi üçün hökümət tərəfindən silsilə proqramlar icra edilməkdədir. Xüsusilə 2019-2023-cü illəri əhatə edən heyvandarlığın intensiv əsaslarla inkişaf etdirilməsini hədəfləyən dövlət proqramı hazırda icra mərhələsindədir və dövlətin əsas məqsədi ət və ət məhsulları ilə təminat səviyyəsinin 90%-dən yuxarı səviyyəyə çatdırmaqdır.

Azərbaycanda beynəlxalq təcrübəyə əsaslanmaqla, aqrar sektorun dövlət tərəfindən dəstəklənməsində şəffaflığı və hesabatlılığı təmin etmək üçün Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) yaradılmış, artıq kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların da bu sistem vasitəsilə ödənilməsinə

başlanmışdır. Aqrar sektorda innovasiyaya əsaslanan siyasət yürdülməkdədir və əkin yerlərinin koordinatlarının müəyyənləşdirilməsində peyk texnologiyasından istifadə edilir (https://xalqqazeti.com/az/news/77715).

Ərzaq təhlükəsizliyinin təmin olunması nöqteyi-nəzərindən qeyd edə bilərik ki, 2016-ci ildə qəbul olunan Strateji Yol Xəritəsi özündə aqrar sahədə maliyyələşmə mexanizmlərinin formalaşdırılması və əldə edilməsi imkanlarının asanlaşdırılmasını ehtiva etməkdədir. Burada eyni zamanda kənd təsərrüfatına investisiyaların cəlb olunması və onun müxtəlif vasitələr ilə stimullaşdırılması, həmçinin sığorta məsələləri də yer almaqdadır (http://www.e-qanun.az/framework/34254).

Ölkəmizdə həyata keçirilən və bütün iqtisadi sferaları əhatə edən iqtisadi siyasət nəticəsində ərzaq təhlükəsizliyi ilə təmin olunma indeksinin beynəlxalq reytinq cədvəli vasitəsilə bir çox ölkələrdən irəli səviyyədə qərarlaşdığını görünür. Qlobal Ərzaq Təhlükəsizliyi indeksinin məlumatlarına əsasən deyə bilərik ki, ölkəmiz beynəlxalq reytinq cədvəlində 2016-2021-ci illər arasında 113 ölkə arasından əllilikdə mövqe tutmuşdur. Azərbaycan qlobal indeksdə 2016-cı ildə 57-ci, 2019-cu ildə 53-cü, 2021-ci ildə isə 56-cı yerdə qərarlaşmışdır və bunun səbəbi dünyamızı bürüyən Covid – 19 pandemiyasının qlobal səviyyədə yaratdığı iqtisadi, siyasi və sosial problemlər olmuşdur (bax: şəkil 4). Bu sıralamada ölkəmiz Şimali Afrika dövlətlərindən Misir, Əlcəzair, Tunis və Mərakeşi və eyni zamanda Ukrayna, Serbiya (2019) kimi Avropa dövlətlərini qabaqlayır.

**Şəkil 4: Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində Azərbaycan, 2016-2021-ci illərdə**




**Mənbə:** https://impact.economist.com/sustainability/project/food-security-index/Index məlumatları əsasında hazırlanmışdır, (24.12.2021).

Beynəlxalq indeks bütün bu illər ərzində dövlət tərəfindən həyata keçirilən proqramların ölkənin ərzaq təhlükəsizliyinə hansı surətdə sirayət etdiyinin bariz nümunəsini ifadə etməkdədir.

Azərbaycan dövləti çoxtərəfli diplomatiyanı dəstəkləyən multilateral siyasət yürüdür və ölkəmiz beynəlxalq təşkilatlar çərçivəsində çox səmərəli əməkdaşlıqla milli maraqlara söykənən konvensiyalara qoşulur. 2000-ci ildə Avropa Komissiyasının Ərzaq təhlükəsizliyi proqramına qatılan ölkəmiz həmçinin BMT-nin eyni ildə qəbul etdiyi MİH-ə qoşulmuş və ərzaq təhlükəsizliyi sahəsində əldə etdiyi uğurlara və yoxsulluğun azaldılmasına görə 2015-ci ildə FAO tərəfindən mükafatlandırılmışdır. Hazırda 2030-cu il üzrə qlobal gündəliyi rəhbər tutaraq dövlət DİM-in məqsədlərinin həyata keçirilməsi istiqamətində əməli-praktiki siyasət yürütməkdədir.

# II FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN TƏHLİLİ

## 2.1. İşğaldan əvvəlki dövrdə Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf vəziyyətinin təhlili

Qarabağ iqtisadi rayonu Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə ölkədə iqtisadi rayonlar üzrə idarəetmənin və planlaşdırmanın çevik və optimal surətdə formalaşdırmaq məqsədilə yaradılan və yeni iqtisadi rayonların təsnifatında təsdiq olunan 14 iqtisadi rayondan biridir. İqtisadi rayon ölkə ərazisinin 10.38%-ni təşkil edir, tərkibinə 8 rayon və Xankəndi şəhəri daxildir (bax: şəkil 5).

**Şəkil 5: Yeni iqtisadi rayonlaşma və Qarabağ iqtisadi rayonu**




**Mənbə:** https://president.az/az/articles/view/52389 məlumatları əsasında müəllif tərəfindən hazırlanıb, (26.12.2021).

Qarabağ iqtisadi rayonunun işğaldan əvvəlki dövr kənd təsərrüfatı və ərzaq təhlükəsizliyinin təhlilinə keçid etmədən öncə qeyd etmək lazımdır ki, həmin dövrün inzibati ərazi bölgüsü indikindən fərqli olmuşdur və iqtisadi rayonun təhlil edilməsi nəzərdə tutulan işğaldan azad olunmuş ərazisi o zamanlar Dağlıq Qarabağ Muxtar

Vilayəti (DQMV) və Ağdam, Füzuli rayonlarını özündə birləşdirmişdir. 1991-ci il 26 noyabr tarixində Azərbaycan Respublikası tərəfindən muxtariyyətlik statusu ləğv edilmiş, Muxtar Vilayətin tərkibinə daxil olan Əsgəran rayonunun bazası əsasında Xocalı rayonu, Hadrut və Martuni rayonları ləğv edilərək, Xocavənd rayonu yaradılmış, Ağdərə rayonu ləğv edilərək ərazisi Tərtər, Ağdam və Kəlbəcər rayonları arasında bölüşdürülmüşdür. Ağdərə şəhəri isə Tərtər rayon tabeliyinə verilmişdir (bax: şəkil 6).

**Şəkil 6: Ləğv olunmuş DQMV, 1923-1991**




**Mənbə:** https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/azerbaycanin-isgal-altindaki-topraklari-karabag/1989594 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, (26.12.2021).

Ötən əsrin 70-ci illərindən başlayaraq respublikamız Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə genişmiqyaslı inkişaf dövrünə qədəm qoymuşdur. Ümummilli liderin sovet dövründə Azərbaycana rəhbərlik etdiyi vaxt bütün sahələrə, o cümlədən kənd təsərüfatına böyük diqqət yetirildi və ümumi iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynayan infrastruktur məsələlərinin həll edilməsi prioritet siyasət şəklini aldı.

Muxtar Vilayətdə sənaye müəssisələrinin yaradılmasına başlanıldı və bu da həm işsizlik səviyyəsinin azaldılmasına və şəhər əhalisinin sayının artmasına birbaşa təsir göstərmişdir. Xankəndi şəhərində şərab-konyak kombinatının, Xocalıda (Əsgəranda) pivə zavodunun tikilməsi nəticəsində aqrar-sənaye sektoru daha da inkişaf etmiş və keyfiyyətli formada sənaye məhsulunun əldə edilməsinə rəvac vermişdir. Bu prosesin məntiqi nəticəsidir ki, 1980-ci illərin əvvəllərində Muxtar Vilayətdə istehsal olunan 100 min dekalitrdən artıq şərab məhsulu Macarıstana ixrac olunurdu. O zamanlar Muxtar Vilayətin Aqrar-Sənaye birliyinə daxil olan müəssisələr il ərzində 180 milyon manatdan artıq dəyərdə məhsul istehsal edirdi. Ölkəmizdə 1985-ci ilin statistik göstəricisinə əsasən sənaye məhsulu istehsalının həcmi 12 milyard manat olmuş, Muxtar Vilayətdə isə qeyd olunan rəqəmin 2 faizi civarında sənaye məhsulu istehsal olunmuşdur.

Azərbaycan rəhbərliyi tərəfindən o zamanlarda respublikada aparılan iqtisadi siyasət demoqrafik artımın iqtisadi artımla proporsionallıq təşkil etməsinə hesablanmışdır. Ulu Öndər ümumrespublikanın, o cümlədən Muxtar Vilayətin inkişafına və inzibati ərazisinin ölkənin digər regionları ilə sıx iqtisadi inteqrasiya əlaqələrinin formalaşmasına, respublikanın digər bölgələri ilə bərabər və mütənasib şəkildə inkişafına xüsusi diqqət yetirmişdir. Xüsusilə Vilayətdə kapital qoyuluşlarının həcmi əvvəlki illərdən məbləğlə ifadədə 172.5 milyon artaraq 1971-1985-ci illərdə 483 milyon manata yüksəlmişdir. Əgər 1961-1965-ci illərdə DQMV-də adambaşına kapitalqoyuluşunun (investisiyanın) həcmi 59 manat təşkil edirdisə, bu rəqəm 1981-1985-ci illərdə 220 manatdan yüksək olmuşdur. Kapitalqoyuluşunun həcminin artması digər sahələrlə bərabər müvafiq olaraq kənd təsərrüfatının inkişafına da yol açmışdır (Народное Хозяйство Азербайджанской ССР, 1987, səh. 124).

Müxtəlif illərdə həyata keçirilmiş proqramlara uyğun olaraq Xankəndi su elektrik stansiyası (SES), Sərsəng SES tikilib istifadəyə verilmişdir. Sərsəng SES elektrik enerjisi ilə paralel 100 min hektardan çox sahəyə malik əkin sahələrinin suvarılmasına şərait yaratmışdır.

DQMV-də böyük sənaye müəssisələri içərisində minlərlə işçinin çalışdığı Qarabağ ipək kombinatı özünəməxsus yer tuturdu. İstehsal prosesi əsasən yerli

xammala əsaslanırdı. Belə ki, müəssisə üçün xammal Şəkidən gətirilirdi sonda dekorativ bəzək üçün Şəkiyə göndərilirdi. Analoji proses Xankəndi ayaqqabı fabriki üçün də müvafiq idi və həmin müəssisə üçün isə xammal Bakıdan gətirilirdi. Bütün bu qeyd olunanlar Muxtar Vilayətin ölkəmizin digər şəhər və rayonları ilə geniş iqtisadi kooperasiya əlaqələrinə malik olduğunun təsdiqidir.

Yeyinti sənayesi Muxtar Vilayətin sürətlə inkişaf edən sektorlarından biri olmuşdur. Üzüm məhsulunun istehsalı isə iqtisadi rayonda geniş vüsət almışdır (bax: qrafik 1).

**Qrafik 1: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində sovet dönəmində üzüm istehsalı, min tonla**




| | 1975 | 1980 | 1981 | 1982 | 1983 | 1984 | 1985 |
|---|---|---|---|---|---|---|---|
| Ağdam | 37140 | 94584 | 115407 | 99965 | 99979 | 124059 | 104004 |
| Füzuli | 17607 | 76710 | 87206 | 109597 | 119823 | 123207 | 116354 |
| Hadrut | 7260 | 14592 | 17500 | 16670 | 12033 | 14493 | 12709 |
| Ağdərə | 33052 | 70111 | 74649 | 71961 | 55885 | 89225 | 71380 |
| Xocavənd | 28332 | 42296 | 42281 | 52797 | 37897 | 49257 | 41709 |
| Xocalı | 8299 | 10983 | 10824 | 13279 | 6520 | 11172 | 8890 |

**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh 438-440 statistik materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir, (31.12.2021).

O zamanlar Ağdamda üzüm emalı üzrə istehsalat birliyi, 1 üzüm emalı zavodu, Füzulidə 4 üzüm emalı zavodu fəaliyyət göstərmişdir. Qrafik 1-dən göründüyü kimi üzüm istehsalında xüsusilə fərqlənən Ağdam, Füzuli, Ağdərə və Xocavənd rayonları olmuşdur. Həmin illər ərzində iqtisadi rayonun işğaldan azad olunan əraziləri üzüm istehsalı üzrə Ağdam 28-33%, Füzuli 13-36%, Hadrut 3-5%, Ağdərə 16-25%, Xocavənd 11-21%, Xocalı 1-6% aralığında paya sahiblik etmişdir. Göstərilən illər ərzində respublika üzrə üzüm istehsalının 20-23% aralığı məhz Qarabağ iqtisadi

rayonunun işğaldan azad olunmuş ərazilərinin payına düşürdü. Üzümçülüyün inkişafı şərabçılıq sahəsinin sənaye əsaslı olaraq formalaşdırılmasına təkan vermişdir. Xocalıda (Əsgəranda) ilkin şərab emalı, spirtsiz içkilər, habelə Ağdərə, Xocavənd (Martuni), Hadrut, Ağdam və Füzulidə də şərabın ilkin emalı məqsədilə zavodlar tikilib istifadəyə verilmişdir.

Artıq təhlil nəticəsində Vilayətdə habelə Ağdam və Füzuli rayonlarında üzüm istehsalının geniş vüsət aldığı məlum olmuşdur və 1977-ci ilin statistik göstəricilərində Dağlıq Qarabağda dövlətə satılan kənd təsərrüfatı məhsullarının miqdarında ən böyük çəki 100354 tonla üzüm məhsuluna məxus olmuşdur. Digər əsas kənd təsərrüfatı məhsullarının miqdarı isə qrafik 2-də göstərilmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, həmçinin DQMV-də heyvandarlıq da inkişaf etmişdir.

**Qrafik 2: DQMV-də dövlətə satılan kənd təsərüfatı məhsulların miqdarı, tonla, 1977**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1978 statistikası, səh. 56 məlumatları əsasında tərtib edilmişdir, (04.01.2022).

Qrafikdə qeyd olunmayan, dövlətə satılan kənd təsərrüfatı məhsulları içərisində tütün və kartof məhsullarının miqdarı isə müvafiq olaraq 336 və 748 ton olmuşdur.

Beləliklə, Muxtar Vilayətdə əhalinin rifah halının yaxşılaşdırılmasına yönəlik siyasət öz bəhrəsini vermiş, adambaşına düşən bir sıra göstəricilər, xüsusilə adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulunun həcmi manatla ifadədə 692 manat olmaqla respublika səviyyəsindən yüksək olmuşdur (bax: qrafik 3).

**Qrafik 3: Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulunun həcmi manatla, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР, 1987, səh. 25 statistik materialları əsasında tərtib edilmişdir (05.01.2022).

Sənayenin güclü inkişafı ilə yanaşı qeyd etmək lazımdır ki, Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazilərində kənd təsərrüfatı iqtisadiyyatın əsas sektoru olaraq qalmaqda idi. 1985-ci il göstəricisinə əsasən respublikamızda kollektiv təsərrüfatlar – kolxoz, dövlət təsərrüfatları – sovxoz və təsərrüfatlararası kənd təsərrüfatı müəssisələrinin birlikdə ümumi sayı 1573 və Muxtar Vilayət, Ağdam və Füzuli rayonları üzrə ümumi təsərrüfat sayı 156 idi (bax: qrafik 4). Digər nöqteyi-nəzərdən yanaşsaq ölkə üzrə təsərrüfatların 9.9%-i iqtisadi rayonun işğaldan azad olunan hissəsinə düşürdü. Ümumilikdə Qarabağ regionu üzrə, daha dəqiq indiki iqtisadi bölgü ilə desək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bütövlükdə 289 təsərrüfat mövcud idi. Qarabağ regionu üzrə təsərrüfatların 53.9%-i Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində, 46.1%-i Şərqi Zəngəzur iqtisadi rayonunda cəmləşmişdir. Bu təsərrüfatlar eyni zamanda xeyli insanın çalışdığı iş yeri demək idi.

**Qrafik 4: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazilərində sovet dönəmində mövcud olmuş kənd təsərrüfatı müəssisələrinin sayı, mütləq rəqəmlə, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh 76-78 statistik materialları əsasında tərtib edilmişdir, (06.01.2022).

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə 1981-1985-ci illərdə kənd təsərrüfatında çalışan işçilərin orta illik göstəricisi respublika göstəricisinin 12.4% -ni təşkil edirdi. Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazisi o zamanlar ölkə üzrə qeyd olunan illər ərzində 8.4%-lik orta illik göstəriciyə sahib olmuşdur (Сельское хозяйство Азербайджанской ССР, 1987). Bu rəsmi statistik rəqəm iqtisadi rayonda aqrar sektorun önəmli rola malik olduğunu göstərir və eyni zamanda böyük kənd təsərrüfatı potensialının mövcudluğundan xəbər verir.

Muxtar Vilayətdə istehsal olunan sənaye və kənd təsərrüfatı məhsullarının, eyni zamanda xammal, material və təchizatın həm vilayətdaxili həmdə respublikanın digər bölgələrinə daşınmasının səmərəliliyinin artırılması üçün avtomobil və dəmiryolu nəqliyyat layihələri icra olunmuşdur. Nəqliyyat layihələri içərisində Yevlax-Xankəndi-Laçın-Naxçıvan və Xankəndi-Ağdam-Horadiz-Naxçıvan avtomobil yolları ilə məhsulların Naxçıvan Muxtar Respublikasından ölkəmizin əsas hissəsinə və geriyə Dağlıq Qarabağdan keçməklə daşınması həyata keçirilirdi (bax: şəkil 7). Eyni zamada Yevlax-Bərdə-Ağdam-Xankəndi dəmiryolu fəaliyyət

göstərmiş və Muxtar Vilayətlə ölkəmizin digər bölgələrinin istehsal-kooperasiya əlaqələrinin formalaşmasına və inkişafına öz müsbət təsirini göstərmişdir.

**Şəkil 7: Qarabağ iqtisadi rayonunda işğaldan öncəki dönəmdə mövcud olmuş əsas avtomobil yolları**




**Mənbə:** https://www.ecoi.net/en/document/1040372.html məlumatları əsasında müəllif tərəfindən hazırlanıb, (07.01.2022).

Bütün qeyd olunanlar əlbəttə ki, əhalinin rifah halının yaxşılaşdırılmasına öz müsbət təsirini göstərmiş, bu siyasətin nəticəsi özünü statistik şəkildə də təsdiq etmişdir. Belə ki, 1970-ci ildə Azərbaycanda əhalinin sayı 5.18 milyon civarında idisə 1990-cu ildə bu rəqəm 1 milyon 995 min nəfər artaraq 7 milyon 175.2 min nəfərə çatmışdır. Bu göstərici ölkəmizin regionun digər ölkələrindən – Gürcüstan və Ermənistan ilə müqayisədə əhali nöqteyi-nəzərdən irəlidə olduğunun təsdiqidir. 1990-cı ildə (CQ) ölkələri üzrə əhalinin xüsusi çəkisində respublikamız 46.25% artımla birinci yerdə qərarlaşmışdır (bax: cədvəl 1). Qeyd olunan illər aralığında ölkəmizdə həyata keçirilən iqtisadi siyasət, o cümlədən aqrar və sənaye vektor əsaslı siyasət bütün sahələrin inkişaf dinamikasına müsbət impuls əlavə etmiş, əhalinin rifah halının yüksəldilməsində birbaşa rol oynamışdır.

**Cədvəl 1: Cənubi Qafqaz ölkələrində 1970-1990-cı illərdə əhalinin sayı, min nəfərlə**

| Ölkələr | 1970 | CQ üzrə əhalinin xüsusi çəkisi, %-lə 1970 | 1980 | CQ üzrə əhalinin xüsusi çəkisi, %-lə 1980 | 1990 | CQ üzrə əhalinin xüsusi çəkisi, %-lə 1990 |
|---|---|---|---|---|---|---|
| **Azərbaycan** | **5 180 032** | **43.8%** | **6 150 735** | **44.8%** | **7 175 200** | **46,25%** |
| **Gürcüstan** | 4 119 900 | 34.85% | 4 467 700 | 32.6% | 4 802 000 | 30,95% |
| **Ermənistan** | 2 525 067 | 21.35% | 3 099 759 | 22.6% | 3 538 164 | 22,80% |
| **Cəmi (CQ)** | 11 824 999 | 100% | 13 718 194 | 100% | 15 515 364 | 100% |

**Mənbə:** https://data.worldbank.org/indicator/SP.POP.TOTL?locations=AZ-GE-AM məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

İnkişaf prosesləri öz növbəsində Muxtar Vilayətdə də əhalinin say artımı ilə nəticələnmişdir. Xüsusilə Vilayətdə şəhər əhalisinin sayında 1970-1989-cu illər arasında 40 min nəfərdən bir qədər çox artım qeydə alınmışdır (bax: cədvəl 2). 1989-cu ildə urbanizasiya prosesi 1970-ci il ilə müqayisədə 70.65% artmışdır.

**Cədvəl 2: DQMV – də əhalinin ümumi sayı şəhər və rayon əhalisi ilə birlikdə, min nəfər**

| İllər | Əhali | Şəhər əhalisi | Şəhər əhalisinin DQMV üzrə xüsusi çəkisi, %-lə | Kənd əhalisi |
|---|---|---|---|---|
| 1970 | 150 313 | 57 329 | 38.13% | 92 984 |
| 1979 | 162 181 | 70 073 | 43.2% | 92 108 |
| 1989 | 189 085 | 97 836 | 51.74% | 91 249 |

**Mənbə:** http://www.demoscope.ru/weekly/ssp/resp_nac_89.php?reg=71 məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Bütün təhlil olunan statistik göstəricilər keçmiş dövrdə, işğaldan öncəki zamanlarda həm kənd təsərrüfatı sektorunun həm də yerli xammala əsaslanan sənaye sahəsinin yüksək inkişafa nail olduğunu təsbit etmişdir. Kənd təsərrüfatı ilə paralel sənayenin inkişafı urbanizasiya prosesini sürətləndirmişdir. 1970-ci ildə DQMV-də şəhər əhalisinin sayı vilayət üzrə xüsusi çəkidə 38.13% təşkil edirdisə 1970-ci ildə bu rəqəm 51.74% olmuşdur.

## 2.2. İşğaldan əvvəlki dövrdə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsində Qarabağ iqtisadi rayonunun rolu və əhəmiyyəti

Qarabağ iqtisadi rayonunun işğaldan azad edilmiş ərazisini keçmiş dövr inzibati ərazi bölgüsü ilə desək DQMV və Ağdam, Füzuli rayonları yüksək

məhsuldarlı kənd təsərrüfatı regionları olaraq tanınırdı. Ölkəmizin həmin zamanlarda iqtisadiyyatının böyük hissəsi kənd təsərrüfatı hesabına formalaşmış və bu sahənin yüksək inkişafına əsasən Azərbaycan aqrar respublikaya çevrilmişdi. Bu isə əlbəttə ki, öz növbəsində ərzaq təhlükəsizliyinin yüksək səviyyəli təmin olunması ilə tamamlanırdı.

Aqrar sahənin inkişafı başlıca olaraq kənd təsərrüfatına yararlı torpaq sahələrinin olmasından birbaşa asılıdır. İqtisadi rayonun işğalçılardan təmizlənmiş ərazisində isə bu aspektdən aqrar sektorun inkişafı üçün geniş imkanlar mövcud idi. Statistik göstəriciyə əsasən 1985-ci ildə DQMV, Ağdam və Füzuli regionları üzrə kənd təsərrüfatına yararlı torpaq sahəsi (əhalinin torpaq sahələri daxil olmadan) 389315 hektar (ha) olmuşdur. Qeyd olunan regionlar içərisində Ağdam rayonu kənd təsərrüfatına yararlı torpaq sahəsi üzrə lider olmuşdur (bax: qrafik 5).

**Qrafik 5: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatına yararlı torpaq sahələri, ha, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 240-242 statistik materialları əsasında tərtib edilmişdir, (12.01.2022).

Sonrakı yerlər isə sıralama ilə Füzuli, Ağdərə, Xocavənd, Xocalı, Hadrut və Şuşa rayonuna məxsusdur. Ölkə üzrə isə qrafik 5-də adları göstərilən rayonlar kənd təsərrüfatına yararlı torpaq sahəsinin 9.7%-ni özündə birləşdirmişdir. Müqayisə üçün Şərqi Zəngəzur iqtisadi rayonunu götürsək bu göstərici 5.92% təşkil etmişdir

və Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatına yararlı torpaq sahəsi baxımından əkinçilik üçün daha böyük imkanlar mövcud olmuşdur. Kənd təsərrüfatına yararlı torpaq sahəsi əhalinin istifadə etdiyi tarpaq sahəsi birlikdə isə Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazisində 1985-ci il üçün 396149 ha olmuşdur (bax: şəkil 8).

**Şəkil 8: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazisində kənd təsərrüfatına yararlı torpaq sahələri, əkinə yararlı torpaq sahələri və kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 238-245 statistik materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir, (14.01.2022).

Əkinə yararlı torpaq sahəsi o dönəmdə respublika üzrə əkin sahələrinin 8.93%-ni təşkil etmiş, mütləq rəqəmlə ifadədə bu göstərici 124377 ha-dır. 1985-ci ildə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi isə 116 min ha-dan çox olmaqla ölkə üzrə 8.46%-lik göstəriciyə malik olmuşdur.

Statistik məlumatlara görə Azərbaycanda 1985-ci ildə 1 milyon 371.3 min ha ərazi kənd təsərrüfatı bitilərinin əkin sahəsinin payına düşür. Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş əraziləri üzrə isə ayrı – ayrılıqda kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin miqdarı qrafik 6-da göstərilmişdir.

**Qrafik 6: Qarabağ iqtisadi zonasına daxil olan rayonlarda işğaldan öncəki dönəmdə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, ha, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 238-240 statistik materialları əsasında tərtib edilmişdir, (15.01.2022).

Aparılan tədqiqatdan artıq məlum olur ki, kənd təsərrüfatı bitkilərinin əkin sahəsində ha ilə ifadədə böyük ərazi ardıcıllıqla Ağdam, Füzuli, Xocavənd və Ağdərəyə məxsusdur. Sonrakı yerlərdə isə müvafiq olaraq Hadrut və Şuşa rayonlarıdır. Müqayisə nöqteyi-nəzərindən götürsək Şərqi Zəngəzur iqtisadi rayonu ölkə üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin 1985-ci ildə cəmi 3%-ni özündə ehtiva etmişdir. Buradan da artıq aydın olur ki, Qarabağ iqtisadi rayonunun işğaldan azad edilmiş əraziləri bitkiçilik məhsullarının əkini üçün əlverişli relyefə və iqlimə malikdir. Eyni zamanda bitkiçilik məhsulları üçün əlverişli torpaqların mövcudluğu aqrar sektorun bu istiqamətinin inkişafında təkanverici rola malik olmaqla ölkənin bitkiçilik məhsulları ilə təminatını, digər bir ifadəylə ərzaq təhlükəsizliyinin təminatına böyük təsir göstərir.

Ərzaq təhlükəsizliyi baxımından əsas, kənd təsərrüfatı məhsulları içərisində isə strateji məhsul sayılan buğdanın 1985-ci ildə ölkə üzrə istehsalı 1965-1975-ci illərlə müqayisədə daha da genişlənmiş və əldə olunan buğdanın həcmi 772095 ton olmuşdur. Respublikada istehsal olunan buğdanın 9.83%-i və ya 75941 tonu iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərinin payına düşmüşdür. Buğda istehsalının

əsas hissəsi Ağdam, Füzuli, relyefi əsasən dağlıq olan Xocavənd, Xocalı və Ağdərə rayonlarının üzərinə düşür (bax: qrafik 7). Şərqi Zəngəzur iqtisadi rayonu ilə müqayisəli təhlil aparsaq, statistik məlumatlardan məlum olur ki, 1985-ci ildə ölkə üzrə buğda istehsalının 2.2%-i məhz Şərqi Zəngəzura məxsusdur. Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərinin buğda istehsalı üzrə göstəiciləri ərzaq təhlükəsizliyinin təmin olunmasında öz rolunu qabarıq şəkildə təsdiq edir.

**Qrafik 7: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində buğda istehsalı, min ton, 1980-1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 270-272 statistik materialları əsasında tərtib edilmişdir, (16.01.2022).

Qrafik 7-dən göründüyü kimi ən az buğda istehsalı Şuşa rayonundadır. Buna səbəb isə Şuşa rayonu əsasən dağlıq relyefdən ibarətdir və daha çox turizm və sənaye mərkəzi rayonlarından biri olmuşdur.

Ümumi iqtisadi rayonun azad olunmuş əraziləri üzrə 1965-1985-ci illər arası buğda istehsalına nəzər saldıqda yüksələn xətlə inkişaf etdiyini və qeyd edilən illər ərzində daha böyük məhsuldarlığa nail olunduğu məlum olmuşdur.

**Qrafik 8: İqtisadi rayonun azad olunmuş əraziləri üzrə ümumilikdə 1965-1985-ci illər arası buğda istehsalı, min ton**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 270-272 statistik materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir, (16.01.2022).

Qrafik 8-dən məlum olur ki, 1965-1985-ci illər arasında buğda məhsulunun istehsalı 2 dəfədən çox artmışdır. Əgər 1965-ci ildə 37 min tona yaxın buğda istehsal olnurdusa bu göstərici 1985-ci ildə 76 min tona yaxın yaxın olmuşdur. 1965 və 1970-ci illər arasında məhsuldarlıq 62.4%, 1980-1985-ci llər arasında isə 17.8% artmışdır. Keçmiş dövrdə məhsuldarlığın 20 il ərzində əhəmiyyətli dərəcədə artırmaq mümkün olmuşdursa müasir dövrdə yeni texnika və texnologiyalar vasitəsilə bu göstəricilərdən daha artığına nail olmaq mümkündür. Ümumilikdə iqtisadi rayon qeyd olunan dönəmlərdə respublika üzrə buğda istehsalının 8-10%-ni özündə cəmləşdirmişdir.

Dağlıq relyef əlbəttə ki, heyvandarlığın inkişafı üçün münasibdir və nəzərə alsaq ki, Muxtar Vilayətin əksər hissəsi dağlıq relyefə malikdir, o zaman heyvandarlıq sahəsinin düzən ərazilərdə ətlik-südlük, yüksək dağlıq ərazilərdə ətlik-yunluq istiqamətinin inkişafı üçün böyük imkanlar mövcud olmuşdur. 1985-ci ilin statistik göstəricilərində DQMV, Ağdam və Füzuli regionları birlikdə ölkə üzrə qoyun və keçilərin 10.72%-ni və ya miqdarla 600049, inək və camışların 8.23%-ni

və ya 61470, iribuynuzlu mal-qaranın 8.81%-ni özündə cəmləşdirmişdir (bax: cədvəl 3).

**Cədvəl 3: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində heyvandarlıq, 1985**

| | **Qoyun və keçilərin sayı** | ***Qoyun və keçilərin ölkə üzrə xüsusi çəkisi, %-lə*** | **İnək və camışların sayı** | ***İnək və camışların ölkə üzrə xüsusi çəkisi, %-lə*** | **İri buynuzlu mal-qaranın sayı** | ***İri buynuzlu mal-qaranın ölkə üzrə xüsusi çəkisi, %-lə*** |
|---|---|---|---|---|---|---|
| *Azərbaycan* | *5 595 073* | *100%* | *746 300* | *100%* | *2 025 648* | *100%* |
| Ağdam | 171 673 | 3.06% | 16 800 | 2.25% | 43 315 | 2.14% |
| Füzuli | 146 271 | 2.61% | 13 300 | 1.78% | 37 638 | 1.86% |
| Hadrut | 47 494 | 0.85% | 4370 | 0.58% | 13 268 | 0.66% |
| Ağdərə | 90 055 | 1.61% | 10 760 | 1.45% | 32 166 | 1.59% |
| Xocavənd | 71 911 | 1.28% | 6430 | 0.86% | 20 720 | 1.02% |
| Xocalı | 45 590 | 0.81% | 7130 | 0.95% | 22 837 | 1.12% |
| Şuşa | 27 055 | 0.5% | 2680 | 0.36% | 8533 | 0.42% |
| Cəmi | 600 049 | 10.72% | 61 470 | 8.23% | 178 477 | 8.81% |

**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 344-352 statistik materialları əsasında müəllif tərəfindən hesablanmışdır.

Təhlilə əsasən məlum olur ki, o dönəmlərdə heyvandarlıq sahəsində, xüsusilə qoyun və keçilərin, iri buynuzlu mal-qaranın ölkə üzrə xüsusi çəkisində Ağdam, Füzuli, Ağdərə, Xocalı və Xocavənd, inək və camışların isə ölkə üzrə xüsusi çəkisində Ağdam, Füzuli, Xocalı və Xocavənd rayonları digər adları göstərilən rayonlara nisbətən böyük paya malik olmuşlar. Həmin il heyvandarlıqda Qarabağ iqtisadi rayonunun işğaldan azad edilmiş əraziləri Şərqi Zəngəzur iqtisadi rayonundan inək və camışların ölkə üzrə xüsusi çəkisi etibarilə 1.43%, qoyun və keçilər üzrə 2.22%, iri buynuzlu mal-qara üzrə isə 1.41% daha çox üstünlükdə mövqe tutmuşdur.

Heyvandarlığın tədqiqi isə məntiqi zəncirin davamı olaraq ət və süd məhsulları istehsalının və qeyd olunanların ərzaq təhlükəsizliyinin təmin olunmasında hansı rol oynamasını təhlil etməyi şərtləndirir. Ərzaq təhlükəsizliyinin təmin olunması baxımından qeyd edə bilərik ki, 1985-ci ildə ölkə üzrə ət məhsullarının istehsalında Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazisinin malik olduğu pay 10.11%, süd məhsulları istehsalı göstəricisi baxımından isə 9.95% olmuşdur. Statistik nöqteyi-nəzərdən bu göstəricilər ölkəmizin ərzaq təhlükəsizliyinin təmin

olunmasında iqtisadi rayonun əhəmiyyətli rol oynadığını əyani şəkildə sübut edir. İqtisadi rayonun işğaldan azad edilmiş ərazilərində ət məhsulu isehsalın üzrə Xocavənd, Ağdərə, Ağdam, Füzuli və Xocalı rayonları, süd məhsulu istehsalı üzrə Ağdam, Ağdərə, Füzuli, Xocavənd və Xocalı rayonları lider olmuşlar (bax: qrafik 9).

**Qrafik 9: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində ət və süd istehsalı, ton, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 88-91 və 108-111 statistik materialları əsasında tərtib edilmişdir, (18.01.2022).

Ət və süd məhsulları istehsalında Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazisində qonşu Şərqi Zəngəzurdan miqdarca daha çox ət və süd məhsulları istehsal olunmuşdur. Müqayisə üçün götürsək həmin ildə Şərqi Zəngəzur iqtisadi rayonu ölkə üzrə ət və süd məhsullarının xüsusi çəkisində müvafiq olaraq 5.2% və 6.6%-də qərarlaşmışdır.

Statistik məlumatlara nəzər salsaq Qarabağ iqtisadi rayonu ət və süd məhsullarının istehsalında 1970-1985-ci illər ərzində respublika üzrə nəzərəçarpacaq faiz göstəricisinə malik olmuşdur. Belə ki, bu göstərici dinamikası ət və süd istehsalı müvafiq olaraq 1970-ci ildə 11.45% və 10.95% təşkil edirdisə, 1975-ci ildə 12.79% və  9.98% səviyyəsində qərarlaşmışdır.

**Şəkil 9: Qarabağ iqtisadi rayonunda 1975-1985-ci illər arasında ət və süd məhsulları istehsalının respublika üzrə xüsusi çəkisi, faizlə**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 88-91 və 108-111 statistik materialları əsasında müəllif tərəfindən hesablanmışdır, (18.01.2022).

Ümumilikdə götürsək ət istehsalı o zamanlar ölkə üzrə xüsusi çəki əmsalında faizlə ifadədə 10-12% -lik interval arasında dəyişmişdir. Eyni göstərici süd məhsulları istehsalı üçün isə 9.95%-10.95% olmuşdur. Bu məhsulların istehsalının Qarabağ iqtisadi rayonunda işğaldan əvvəlki dövrdə əhəmiyyətli paya sahib olduğunu nəzərə alaraq reinteqrasiya və yenidənqurma və bərpa dövründə yeni nəsil fermer təsərrüfatlarının qurulmasında və inkiaf etdirilməsində diqqətə alınması vacibdir.

Heyvandarlıq sahəsinin ərzaq təhlükəsizliyinin təminatında digər bir istiqaməti yumurta istehsalıdır. Hesablamalarımıza görə 1985-ci ilin statistik məlumatlarında yumurta istehsalının 6.34%- i iqtisadi rayonun işğaldan azad olunmuş ərazilərinə məxsusdur. Ümumi respublika üzrə həmin ildə 947668 ədəd yumurta, iqtisadi rayonun azad olunmuş ərazisində ümumilikdə 60084 ədəd istehsal olunmuşdur.

**Qrafik 10: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində yumurta istehsalı, ədəd, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 132-135 statistik materialları əsasında tərtib edilmişdir, (25.01.2022).

Aparılan təhlil nəticəsində ortaya çıxmışdır ki, il ərzində 10 min ədəddən artıq yumurta istehsal edən rayonlar Ağdam, Xocavənd və Füzuli rayonları, 5 min ədəddən artıq yumurta istehsal edən rayonlar Xocalı və Ağdərədir (bax: qrafik 10).

Qarabağ iqtisadi rayonunun işğaldan öncəki dönəmlərdə yerli kənd təsərrüfatı məhsulları ilə ərzaq təhlükəsizliyinin təminatındakı rolunu təhlil edərkən taxıl istehsalını mütləq vurğulamalıyıq. Belə ki, iqtisadi rayonun işğaldan azad olunmuş əraziləri 1985-ci ildə ölkə üzrə taxıl istehsalının 9.49%-ni təşkil etmiş və ya 120.4 min ton taxıl əldə edilmişdir. Əsas taxılçılıq rayonları olan Ağdamda 29.7 min ton, Füzulidə 24.5 min ton, Muxtar Vilayətdə isə 66.2 min ton taxıl istehsal olunmuşdur. Vilayətin tərkibinə daxil olan rayonlar içərisində əsas taxılçılıq rayonları Xocavənd, Xocalı və Ağdərədir (bax: qrafik 11). Strateji əhəmiyyətə sahib olan taxıl məhsulunun istehsalında iqtisadi rayonun respublika üzrə xüsusi çəkisi 1970-1980-ci illər arasında 12-8%-lik interval aralığında olmuşdur.

İqtisadi zona üzrə ayrı-ayrı rayonların taxıl istehsalında xüsusi çəkisini faizlə ifadə etsək görərik ki, Ağdam 25%, Füzuli 20%, Xocavənd 20%, Xocalı 17%, Ağdərə 10%, Hadrut 6% səviyyəsində məhsul istehsalına malik olmuşdur.

**Qrafik 11: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində taxıl istehsalı və iqtisadi rayon üzrə taxıl istehsalında rayonların xüsusi çəkisi, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 266-268 statistik materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təhlil aparılan kənd təsərrüfatı məhsullarının müxtəlif kateqoriyaları və onların ölkə üzrə istehsaldakı payı Qarabağ iqtisadi rayonunun ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığını və əhəmiyyətli paya sahib olduğunu təsdiq etmişdir. Lakin işğal faktorunun iqtisadi rayonun həyatında yer tutması bütün iqtisadi sahələrə zərər vurduğu kimi kənd təsərrüfatı sektoruna da dərindən təsir etmiş, formalaşmış istehsal-kooperasiya sistemini köklü surətdə məhv etmişdir.

## 2.3. İşğal dönəmində iqtisadi rayonun kənd təsərrüfatına vurulmuş ziyan və ətraf mühitə qarşı törədilmiş ekoloji terror

XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən Azərbaycanın minilliklər boyu ayrılmaz parçası olan Qarabağ torpaqlarının heç bir tarixi, hüquqi əsas olmadan zorla işğal edilməsinə başlanılması sonda ölkəmizin suveren ərazisinin 20%- nin işğal altına düşməsi ilə nəticələndi. İqtisadi rayonlaşma ilə ifadə etdikdə

Qarabağ (keçmiş DQMV, Ağdam və Füzuli) və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisi işğal edilmişdi. 30 ilə yaxın davam edən sülh danışıqları heç bir nəticə vermədi və düşmənin 2020-ci ilin 27 sentyabrında ölkəmizin beynəlxalq səviyyədə tanınmış hüdudlarına doğru hücumuna cavab olaraq başladılan əks-hücum əməliyyatı 44 gün sonra Ermənistanın tam məğlubiyyəti ilə, sonda kapitulyasiya aktına imza atması ilə tamamlandı. XXI əsrdə Azərbaycanın hərb meydanında qazandığı qələbə milli qürür, beynəlxalq hüququn bərpası və ədalətin təntənəsidir.

İşğal dövründə iqtisadi rayonun ərazisində yüz minlərlə mina basdırılması, qanunsuz iqtisadi fəaliyyətlərin həyata keçirilməsi, təbii ehtiyatların istismarı, ekosistemin çirkləndirilməsi, o cümlədən çayların müxtəlif kimyəvi qarışığı olan tullantılarla zəhərləndirilməsi, meşələrin qırılması kimi soyğunçu və faşist düşüncəyə əsaslanan fəaliyyətlər hökm sürmüşdür. Xüsusilə mina basdırılması torpaqların çirkləndirilməsinə onun məhsuldarlığının zəiflədilməsinə gətirib çıxarır. Bu proses də kənd təsərrüfatı sektorununun inkişafını ciddi zərbə altına qoyur.

Keçmiş dövrün statistik materialları üzərində aparılan təhlildən aydın olur ki, əsas kənd təsərrüfatı məhsulları istehsalının kateqoriyaları üzrə Qarabağ iqtisadi rayonu 6-10% aralığında ölkə üzrə xüsusi çəkiyə malik olmuşdur. Kənd təsərrüfatı sektorunun əsas iki istiqamətinin – həm əkinçilik həm də heyvandarlıq sahəsinin fomalaşdırılması və inkişaf etdirilməsi üçün münbit şərait, o cümlədən təbii şərait əlverişli olmuş, statistik müqayisəli təhlil etibarilə desək iqtisadi rayon ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi zəncirinin mühüm halqalarından birini təşkil etmişdir (bax: qrafik 12). Təhlil olunan il üzrə Qarabağ iqtisadi rayonunun əsas kənd təsərrüfatı məhsullarının kateqoriyaları Şərqi Zəngəzur iqtisadi rayonu ilə müqayisədə nəzərəçarpacaq şəkildə əhəmiyyətli xüsusi çəkiyə malik olduğu təsbit olunmuşdur.

**Qrafik 12: Qarabağ (DQMV, Ağdam və Füzuli) və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan əvvəlki dövrdə ölkə üzrə kənd təsərrüfatı məhsulları istehsalında xüsusi çəkisi, %-lə, 1985**




**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987 səh. 88-300 statistik materialları əsasında müəllif tərəfindən hesablanmışdır.

30 ilə yaxın müddət ərzində davam edən erməni işğalı nəticəsində ölkəmiz kənd təsərrüfatı məhsulları ilə özünütəminat səviyyəsinin təmin edilməsi məsələsində iqtisadi rayonun praktiki xüsusi çəkisindən məhrum qalmışdır. Qeyd etmək lazımdır ki, DQMV, Ağdam və Füzuli regionları ölkə ərazisinin 8%-ə yaxın hissəsini təşkil edib ki, bu da özlüyündə heç də kiçik göstərici deyil və iqtsadiyyatının əsasını aqrar sektor təşkil etdiyindən aqrar-sənaye sektorunun yerli xammal hesabına məhsullarının istehsalı və istehlakından bütünlükdə ölkə əhalisi məhrum buraxılmışdır.

Aparılan tədqiqat nəticəsində ortaya çıxarılan əsas kənd təsərrüfatı məhsulları istehsalının ölkə üzrə xüsusi çəkisinin işğal illərində əldə edilə bilməməsi kənd təsərrüfatı sektoruna böyük ziyan vurmuş, əhalinin əsrlərdir yaşadığı öz torpaqlarından ermənilər tərəfindən etnik təmizləməyə məruz qoyulması və məcbur köçkün halına salınması bütövlükdə ölkə iqtisadiyyatına ciddi zərbə vurmuş, həmçinin ölkəmizin aqro sektorun məhsulları ilə özünü təminat səviyyəsinə birbaşa təsir göstərmişdir. Tədqiq olunan dövrdə, şəhər əhalisinin 2.33%-i, kənd əhalisinin 2.61%-i, ümumilikdə ölkə əhalisinin 4.94%-i DQMV, Ağdam və Füzuli regionlarında yaşayırdı (bax: cədvəl 4).

**Cədvəl 4: DQMV, Ağdam və Füzuli regionlarında əhalinin sayı, min nəfərlə, 1985**

| | Ümumi əhali | Şəhər əhalisi | Kənd əhalisi |
|---|---|---|---|
| *Azərbaycan* | *6707700* | *3616300* | *3091400* |
| Ağdam | 118800 | 25900 | 92900 |
| Füzuli | 83700 | 21500 | 62200 |
| Hadrut | 14700 | 2400 | 12300 |
| Ağdərə | 47000 | 12500 | 34500 |
| Xocavənd | 28500 | 7300 | 21200 |
| Xocalı | 20300 | 1800 | 18500 |
| Şuşa | 18700 | 13000 | 5700 |
| Cəmi | 331700 | 84400 | 247300 |
| Ölkə üzrə xüsusi çəkisi, %-lə | 4,94 | 2,33 | 2,61 |

**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 44-46 statistik materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.

1985-ci il üzrə əhali sayında aparılmış tədqiqat işğal dövründə böyük əhali kütləsinin didərgin salnmasını və bununla da kənd təsərrüfatı sektorunun necə köklü surətdə təsirləndiyini açıq şəkildə sübut etmişdir.

I Qarabağ müharibəsinin yaratdığı iqtisadi siyasi problemlərə baxmayaraq Ulu Öndərin 1993-cü ildə Azərbaycanda hakimiyyətə gəlişindən sonrakı ötən dövr ərzində dövlətin mövcudluğunun bazasını təşkil siyasi-iqtisadi-hüquqi dövlət əsasları formalaşdırıldı, dövlətin iqtisadi təhlükəsizliyinin siyasi dayaqları yaradıldı. Müharibənin vurduğu ziyanın aradan qaldırılması, ölkədə makroiqtisadi sabitliyinin təmin olunması istiqamətində addımlar atıldı, siyasi müstəqilliklə həmahənglik təşkil edən iqtisadi müstəqilliyin qarant altına alınması məqsədilə iqtisadiyyatın digər sahələrini əhatə edən irimiqyaslı layihələrin icrası üçün beynəlxalq səviyyəli sazişlər imzalandı. Aqrar sektorun inkişafı məqsədilə kolxoz və sovxozların ləğvi, torpaq mülkiyyəti haqqında reformlar həyata keçirildi. Ərazisinin 20%-i işğal altında və 1 milyondan çox qaçqın və məcburi köçkünü olan dövlət üçün iqtisadi və siyasi səhnədə böyük nailiyyətlərin əldə olunması məhz güclü iradəyə sahib ali dövlət rəhbərliyindən birbaşa asılı olan məsələdir. 2003-cü ildən etibarən isə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi islahatlar bütün iqtisadi sahələri əhatə etdiyi kimi kənd təsərrüfatı sektorunu da əhatə etmişdir.

Tədqiqat aparılarkən işğal faktının olmaması şəraitində ölkəmizdə kənd təsərrüfatı məhsulları ilə özünütəminat səviyyəsinin hansı səviyyədə olacağı düşündürən məqamlardan biri olmuşdur. Bu məqsədlə hazırki dövrdə ölkəmizdə faktiki özünütəminat səviyyəsini təhlil etmək üçün ilk növbədə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (ARDSK) son illər üzrə statistik materiallarına müraciət etsək, əldə olunacaq təhlildən bəlli olur ki, strateji məhsul sayılan buğda məhsulları ilə özünütəminat səviyyəsi 2020-ci ildə 57.10% olmuşdur (bax: qrafik 13).

**Qrafik 13: Azərbaycan Respublikasında bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, %-lə, 2020**




**Mənbə:** ARDSK – Azərbaycanın kənd təsərrüfatı: 2021 statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanıb, (01.02.2022).

Həmin il ölkədə 1.8 milyon ton buğda istehsal olunsa da, istehsalın 72%-i həcmində, yəni 1.3 milyon ton buğda məhsulu idxal olunmuşdur. İdxal isə əsasən Rusiya və Qazaxıstandan alınan buğda hesabına təmin olunub və Azərbaycan höküməti tərəfindən bu məqsədlə 504 min manat vəsait xərclənmişdir. 2021-ci ildə isə 1milyon 148 min ton buğda idxal olunmuş və 564 min manat vəsait xərclənmişdir (https://customs.gov.az/modules/pdf/pdffolder/104/FILE_471682-B0ED4D-C59730-B2447C-7400E7-C9CA3A.pdf).

Buğda məhsulu ilə təminatı indiki dövr üçün işğal faktı olmadan, yəni, hipotetik formada təsəvvürə gətirməyə çalışsaq nəzərə almalıyıq ki, iqtisadi rayonun bütün növ əsas kənd təsərrüfatı məhsulları kateqoriyalarında ölkə üzrə xüsusi çəkisi onilliklər ərzində əsasən 6-10% intervalında dəyişmişdir. Hipotetik hesablama aparmaq üçün minimum və maksimum hesabalamalar aparılmış, minimum hesablama üçün 1965-1985-ci illər üzrə orta illik məhsul istehsalını baza olaraq götürüb həmin minimum rəqəm ilə ilkin hesablama aparsaq itirilmiş məhsul istehsalı və bununla da kənd təsərrüfatı sektorundan əldə oluna bilməyən məhsul miqdarının kifayət qədər böyük olduğunu görərik (bax: cədvəl 5). İşğal illərinin 1990-cı illərin əvvəllərindən başlanmasına baxmayaraq minimum və maksimum hesablamalar üçün başlanğıc əmsal 1985-ci ildən götürülmüşdür.

**Cədvəl 5: İqtisadi rayon və respublika üzrə hipotetik şəkildə əldə oluna bilməsi təsəvvürə gətirilən əsas kənd təsərrüfatı məhsullarının miqdarı, min tonla, 2020**

| | **Qarabağ iqtisadi rayonu üzrə (DQMV, Ağdam, Füzuli)** | | **Respublika üzrə** | | | |
|---|---|---|---|---|---|---|
| | **Minimum hesablama** | **Maksimum hesablama** | **Faktiki məhsul istehsalı** | **Hipotetik hesablama ilə istehsal (*maksimum hesablama ilə*)** | **Faktiki idxal** | **Hipotetik formada idxal (*maksimum heablama ilə*)** |
| Buğda | 104 000 | 111 000 | 1 800 000 | 1 911 000 | 1 300 000 | 1 189 000 |
| Ət məhsulları | 23 306 | 29 000 | 346 011 | 375 011 | 63 627 | 34 627 |
| Süd məhsulu | 126 750 | 144 667 | 2 192 497 | 2 337 164 | 461 348 | 316 681 |

**Mənbə:** Сельское хозяйство Азербайджанской ССР 1987, səh. 88-272 statistik materialları əsasında müəllif tərəfindən hesablanıb.

Maksimum hesablama metodunda buğda istehsalı 1 ilə min ton artımla, ət isehsalı 3 ilə min ton, süd istehsalı isə 5 ilə 10 min ton artımla hesablanmışdır. Qoyulmuş hipotezə müvafiq olaraq maksmum hesablama ilə aparılan təhlil vasitəsilə ortaya çıxarılmışdır ki, əgər işğal faktı olmasaydı 2020-ci ildə buğda istehsalı göstəricisi respublika üzrə 1 milyon 911 min ton olardı, başqa sözlə bu, faktiki istehsal göstəricisinin 6.16%-i həcmində əlavə məhsulun əldə olunması demək idi. Həmçinin buğda məhsulunun faktiki idxal göstəricisi 8.53% azalardı. Eyni şəkildə ət məhsulları kateqoriyasında idxal faktiki idxal göstəricisini 45.57%,

süd məhsulu kateqoriyasında idxal göstəricisini isə 31.35% azaldaraq daha aşağı səviyyələrdə qərarlaşa bilərdi.

Bütün bu təhlillər ölkəmizin kənd təsərrüfatına, aqrar sektorun məhsulları ilə özünütəminetmə səviyyəsinə və ərzaq təhlükəsizliyinə böyük dərəcədə ziyan vurulduğunu isbat etmişdir.

İşğal faktı iqtisadi sahəyə vurduğu zərərlə yanaşı eyni zamanda ekosistemin tarazlığına, torpaq qatının mina basdırılması ilə məhsuldarlığının azalmasına səbəb olmuşdur. Meşələrin qırılması, çayların çirkləndirilməsi, təbii resusların qanunsuz və vəhşicəsinə istismarı kimi fəaliyyətlər işğal illəri ərzində həyata keçirilmişdir. Su resurslarının işğal altına düşməsi ölkəmizin Qarabağ regionu və ətraflarında su qıtlğı və bu kimi qəbildən problemlərin yaranmasına səbəb olmuşdur. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, Tərtər çayının böyük hissəsinin və Suqovuşan su anbarının işğal altında olan dövrlərində ermənilər tərəfindən yay aylarında çayın qarşısı kəsilirdi və bununla da Tərtər rayonunda həm su qıtlığı problemi yaranırdı həm də kənd təəsərrüfatı torpaqlarının suvarılması ciddi dərəcədə problemə çevirilirdi. Qış aylarında isə daşqınların yaranması məqsədilə suyun qarşısı açılaraq əraziyə, təbiətə və dövlətimizə ziyan vurulurdu. Bu bir daha əsaslı-sübutlu erməni faşist ideologiyasının təzahürüdür. Qarabağ iqtiadi rayonu ərazində bir sıra xırda çaylarla yanaşı əsas çaylardan Xaçınçay Ağdam, Bərdə və Tərtər rayolarından, Qarqarçay Şuşa rayonundan başlayaraq Xankəndi, Xocalı, Ağdam ərazisindən, Köndələnçay Şuşadan başlayaraq Xocavənd və Füzuli rayonları ərazisindən axır. Qeyd olunan çaylar içməli su təminatı və suvarma üçün əhəmiyyətli rola malikdir. İqtisadi rayonun cənubunda, Füzuli rayonu ərazisində isə transsərrhəd çaylarımızdan olan Araz çayı axır və ermənilər tərəfindən bütün bu 30 ilə yaxın müddətdə sənaye, məişət tullantıları ilə böyük dərəcədə çirkləndirilmişdir (Shafiyev F., and others, 2021).

Erməni işğalçılarının təbiətimizə, təbii resurslarımıza vurduğu ziyan təkcə su resurslarıma deyil həm də meşələrimizin qırılması ilə də bağlı olmuşdur. Hadrut ərazisində yol çəkilməsi adı altında meşələr qırılmış ağac oduncaqları isə satılmışdır. Həm ağac məmulatlarından sənaye məhsulu istehsalı məqsədilə həm də faydalı

qazıntı yataqlarımızın istismarına qanunsuz olaraq xarici şirkətlər cəlb edilmiş və bu şirkətlər ölkəmizin suveren ərazisində qeyri-leqal şəkildə fəaliyyət göstərmişdir.

Qarabağ iqtisadi rayonunun işğaldan əvvəlki dövrdə kənd təsərrüfatının vəziyyətini, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında verdiyi mühüm töhfəni və işğal illəri ərzində itirilmiş məhsul istehsalı aspektindən aparılan təhlillər yeni reallıqlar şəraitində güclü Azərbaycan dövləti üçün əsas prioritet məsələ olaraq iqtisadi rayonda kənd təsərrüfatını və ərzaq təhlükəsiziyi sisteminin yenidən qurulmasının zəruri olduğunu təsdiq edir, başqa sözlə iqtisadi rayonun qısa zamanda və effektv surətdə ölkə iqtisadiyyatına reinteqrasiyasının həyata keçirilməsinin tezləşdirilməli olduğunu xəbər verir.

# III FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

## 3.1. Qarabağ iqtisadi rayonunda ərzaq təhlükəsizliyinin təmin edilməsinin yenidən qurulması və perspektiv inkişaf istiqamətləri

Dövlətimizin Dəmir Yumruq əks-hücum əməliyyatının müzəffər və təntənəli qələbəsindən sonrakı post konflikt dövründə qarşısında duran ən ümdə məsələ erməni işğalçıları tərəfindən dağıdılmış və yerlə-yeksan edilmiş ərazilərin bərpası və yenidən qurulması fəaliyyətinin icra olunmasıdır. Birinci vəzifə işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsidir və qeyd olunmalıdır ki, təkcə Ağdamda 100 minə yaxın mina basdırılmışdır. Bununla paralel dövlətimiz işğaldan azad olunmuş ərazilərin bərpasına start vermişdir. Artıq dövlət tərəfindən işğaldan azad edilən ərazilərdə şəhər və kəndlərin bərpası ilə bağlı ağıllı şəhər və ağıllı kənd layihələrinin həyata keçiriləcəyi bəyan olunmuş və bu proseslərin mərhələli və düşünülmüş şəkildə implementasiyası üçün ilkin olaraq infrastruktur layihələrinin icrasına başlanılmışdır (Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər). Qarabağ iqtisadi rayonunda ilk ağıllı şəhər layihəsi isə ruhlar şəhərini xatırladan, yerlə yeksan edilmiş Ağdamda gerçəkləşdirilməkdədir. Şəhər müasir dövrün ən innovativ tələblərini özündə cəmləşdirəcək. Tədqiqatımız zamanı Avropanın ən yüksək inkişaf etmiş dövləti olan Almaniyada böyük şəhərlərin demək olar hamısının ətraf ərazilərində böyük bağların salındığı ilə tanış olmuşduq və Ağdam şəhərinin də perspektiv inkişafında, daha doğrusu sıfırdan qurulan Ağdamda da bu layihə öz əksini tapmışdır.

Ağıllı şəhər və ağıllı kənd layihələri çərçivəsində şəhər və kənd infrastrukturunun da ən müasir tələblərə cavab verəcəyi məlum olmuşdur. Bütün Qarabağ regionunun yaşıl zona elan olunması nəticəsində şəhərlərdə və kəndlərdə qurulacaq infrastruktur və təsərrüfatlar iqlim dəyişikliyi ilə mübarizə sahəsində şübhəsiz ki, mühüm töhfə verəcəkdir.

Ağıllı kəndlərin qurulması əlbəttə ki, ağıllı kənd təsərrüfatı sisteminin, fermer təsərrüfatlarının qurulması deməkdir. Ərzaq təhlükəsizliyi sisteminin iqtisadi

rayonda yenidən qurulması aspektindən deyə bilərik ki, ağıllı fermer təsərrüfatlarının – buna praktikada rəqəmsal fermer təsərrüfatları da deyilir - qurulması perspektiv dövr üçün ölkə üzrə beşinci kənd təsərrüfatı inqilabına keçidi də sürətləndirə bilər. Beşinci kənd təsərrüfatı inqilabı süni intellektin və robotların istifadəsinə əsaslanır. Artıq cəmiyyətdə əhalinin böyük hissəsinin şəhərlərdə məskunlaşması kənd təsərrüfatı sektorunda işçi qüvvəsinə tələbin yaranmasına gətirib çıxarır. Bu baxımdan süni intellektin kənd təsərrüfatı robotları ilə inteqrasiyası önəmli rol oynayacaq.

Ölkəmizdə artıq yenidən qurulmasına start verilmiş ərazilərdə ağıllı fermer təsərrüfatlarının yaradılması bu günkü müasir tələblərə - beşinci kənd təsərrüfatı inqilabının gətirdiyi yeniliklərə müvafiq surətdə aparılır. Ümumilikdə götürsək ənənəvi və ağıllı fermaların bir sıra əsas fərqləndirici xüsusiyyətləri vardır (bax şəkil 10).

**Şəkil 10: Ənənəvi və ağıllı fermer təsərrüfatlarının fərqləri**




**Mənbə:** Santos-Velle. S and Kienzle. J., (2020): səh. 17 məlumatları əsasında hazırlanıb, (22.02.2022).

Qeyd olunan ferma formalarının yaradılması ənənəvi fermalarla müqayisədə idarəetməni daha optimal və çevik edəcəkdir. Əsas fərqləndirici xüsusiyyətlər

arasında ən nəzərəçarpanı müasir dövrün texnologiyaların istifadəsinə əsaslanmadır. Peyk texnologiyasından, internetdən istifadə, elektron informasiya bazasını formalaşdırmaq bu qəbildəndir. Ərazinin idarəedilməsində peyk vasitəsilə şəkillərin əldə olunması aqrosektorun inkişafını keyfiyyətcə yeni mərhələyə çatdıracaqdır. Ölkəmizdə qeyd edilənlərlə bağlı mövcud vəziyyət ağıllı təsərrüfatların yaradılmasına tam şəkildə cavab verməkdədir. Texniki yeniliklər əlbəttə ki, perspektiv dövr üçün ərzaq təhlükəsizliyinin təmin olunmasına əhəmiyyətli şəkildə töhfə verəcək. Yeniliklər aşağıdakı üstünlükləri təmin edəcəkdir (Santos-Velle. S and Kienzle. J., 2020):

- Kənd təsərrüfatı məhsulları istehsalının effektivliyini optimallaşdırmaq;
- Keyfiyyəti optimallaşdırmaq;
- Ətraf mühitə zərərli təsirləri minimallaşdırmaq;
- İstehsal ilə əlaqəli riskləri minimallaşdırmaq.

Yeni ağıllı (rəqəmsal) fermalarda dron və qrafik informasiya sistemi platformalarından istifadə bitkinin böyüməsi, torpağın vəziyyəti, hava şəraiti, alaq otlarının yayılması durumu və bu kimi aqro parametrlər haqda real zamanda qrafik informasiyanın fermerlərə ötürülməsini təmin edir. Beləcə fermer təsərrüfatlarında elektron informasiya platforması olacaq və müəyyən proqram təminatı ilə fermer təsərrüfat əməliyyatlarını icra edəcəkdir. Ölkəmizin peyk texnologiyasına sahib olması iqtisadi rayonda rəqəmsal (digital) fermaların fəaliyyətinə geniş imkanlar yaradacaqdır.

Qarabağ iqtisadi rayonunda ərzaq təhlükəsizliyi sisteminin yenidən qurulmasında ən önəmli rolu oynayacaq olan rəqəmsal fermer təsərrüfatlarında robotlardan istifadə edilməsi məhsuldarlığın artırılmasına və insan əməyinin azaldılmasına effektiv surətdə təsir göstərə bilər. Bu baxımdan qurulacaq təsərrüfatlarda aqro robotların – buna aqrobot da deyilir - tətbiqi məqsədəmüvafiqdir. Çünki aqrobotlar 3 əsas tapşırığı yerinə yetirməkdə effektivdir:

- Alaq otlarının yayılmasının qarşısını alır;
- Zərərvericilər və xəstəliklərin monitorinqini həyata keçirir;
- Bəzi məhsulların – giləmeyvə və tərəvəzin məhsul yığımını həyata keçirir.

Forbes jurnalının apardığı tədqiqata əsasən ferma robotları insan əməyinin işgücünü artırır və daha yüksək həcmdə və daha sürətli məhsul yığa bilir (https://www.forbes.com/sites/cognitiveworld/2019/07/05/how-ai-is-transforming-agriculture/).

İqtisadi rayonda bütün bu yeniliklərin tətbiqi nəticəsində formalaşdırılacaq kənd təsərrüfatı sektorunun gələcək inkişaf perspektivlərinin ilkin olaraq hansı istiqamətlər üzrə müəyyənləşdirilməli olduğu işğaldan öncəki dövrlər üzrə apardığımız təhlilə əsasən bəlli olmuşdur. Təhlil nəticəsində iqtisadi rayonun üzümçülük sahəsinin inkişafı üzrə lider olduğu ortaya çıxarılmışdır. Perspektiv istiqamət olaraq iqtisadi rayonda üzüm bağlarının salınması, şərabçılıq üçün əla növ üzüm növlərindən olan "İzabel" üzüm sortunun və hətta tədqiqatımız zamanı tanış olduğumuz Almaniyada əkilən yüksək keyfiyyətli şərab məhsullarının istehsalında istifadə olunan üzüm sortlarının yetişdirilməsi ilə yerli üzüm məhsulları xammalı bazası əsasında şərab məhsullarının istehsalını formalaşdırmaq ölkəmizin sənaye sektorunun inkişafında önəmli rol oynaya bilər. Nəzərə alsaq ki, təhlil nəticəsində iqtisadi rayonda 100 min tondan çox üzüm məhsulu istehsal olunduğu məlum olmuşdur, deməli, "Made in Azerbaijan" brendinin şərabçılıq sahəsində formalaşdırılması və dünya bazarına çıxarılcaq standartlarda məhsul istehsal olunması aqrar sahənin bu spektrinin inkişafını genişləndirəcək və ölkəmizə bu sahədən əlavə valyuta axınını təmin edəcəkdir.

Eyni zamanda ağıllı təsərrüfatların qurulması perspektivdə genişləndirilərək aqroturizm sahəsinin də inkişaf etdirilməsinə yol açacaqdır. Aqroturizm isə tədqiqat zamanı apardığımız araşdırmalar nəticəsində məlum olmuşdur ki, ABŞ və Almaniyada işsizliyin azaldılmasına və bununla da ərzaq təhlükəsizliyinə ciddi ölçüdə təsir göstərir. Ümumilikdə ölkəmizdə turizm sektorunun inkişafına da aqroturizm əlavə müsbət impuls qatacaqdır.

Qarşıdakı dövrdə yenidənqurma və bərpa mərhələsində iqtisadi rayonda formalaşdırılacaq aqro sektor bölgənin aqro-iqtisadi potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına imkan yaradacaqdır. Perspektiv inkişaf istiqamətlərində qeyd olunan təsərrüfat formalarının yaradılması ərzaq təhlükəsizliyinə böyük ölçüdə təsir göstərəcəkdir.

### 3.2. İqtisadi rayonun kənd təsərrüfatının ölkənin iqtisadi həyatına reinteqrasiyası nəticəsində ərzaq təhlükəsizliyinə və idxaldan asılılığa təsiri

Dövlətimiz Qarabağ iqtisadi rayonunun yenidənqurma və bərpa dövrünə start verməklə işğalçıların yerlə yeksan etdiyi ərazilərdə sıfırdan öz vəsaiti hesabına yenidən həyatı canlandırmaq və keçmiş məcburi köçkünlərin əraziyə repatriasiyasını ən qısa zamanda implementə etmək siyasətini öz qarşısına məqsəd olaraq qoyub və bu məqsədə doğru əməli-praktiki addımlar atmaqdadır. İşğaldan əvvəlki dövrün təhlili nəticəsində iqtisadi rayonun böyük aqrar – sənaye potensialının mövcud olduğu və kənd təsərrüfatı sektorunun ölkənin ərzaq təhlükəsizliyində praktiki olaraq önəmli rol oynadığı təsbit olunmuşdur. Bu nöqteyi – nəzərdən ərazilərin işğaldan azad olunmasından sonrakı mərhələdə əsas prioritet iqtisadi rayonda iqtisadi həyatın yenidənqurulması və ölkə iqtisadiyyatına reinteqrasiyasıdır.

İşğaldan azad edilən ərazilərin kənd təsərrüfatı sektorunun ölkənin ümumi kənd təsərrüfatı sisteminə qoşulması ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verə bilər. Indiki dövrdə kənd təsərrüfatı məhsulları içərisində taxılın istehsalı daxili bazar ehtiyaclarını tam şəkildə ödəyə bilməməsi, tələbin təklifi üstələməsi iqtisadi rayonda gələcəkdə bu sahənin formalaşdırılması və yeni üsul, texnologiyalardan istifadəsi ilə inkişafının prioritet təşkil etməsini zəruri edir. Tədqiqatlarımız zamanı aparılan təhlildən məlum olmuşdur ki, ölkəmiz 2020-ci ildə buğda ilə təminatı tam şəkildə ödəmək üçün istehsalın 72%-i həcmində idxal həyata keçirmişdir. Bu rəqəm digər bir ifadəylə ölkəmizin indiki istehsal göstəricisindən 72% daha artıq buğda istehsal etməli olduğu anlamına gəlir. Bu baxımdan təhlil nəticəsində iqtisadi bölgənin Ağdam, Füzuli, Xocavənd, Xocalı rayonları və Ağdərə ərazisinin buğda istehsalında işğaldan öncəki dönəmlərdə böyük praktiki potensialının olduğu üzə çıxmışdır. Hətta hipotetik hesablama ilə işğal faktı olmadan apardığımız ilkin hesablamalarımıza görə iqtisadi rayonun respublikamızda əlavə 100 min ton buğda məhsulunun əldə olunmasına rəvac verəcəyi abstrakt nəticəsi ilə tanış olmuşuq. Ona görə də fikrimizcə reinteqrasiya mərhələsində kənd təsərrüfatı sektorunun yenidən qurulması üzrə birinci vəzifə buğda istehsalının

prioritetləşdirilməsinin məqsədəuyğun hesab edilməsidir. Bu halda ölkənin buğda məhsulu ilə təminatı ilk illərdə bir qədər aşağı səviyyədə olsa da sonrakı dövrdə və perspektivdə bu göstərici yüksələn xətlə inkişaf edəcəkdir. Burada dövlətin ərzaq təhlükəsizliyinin təminatı aspektindən aqrar sektora müdaxiləsi də vacib rol oynaya bilər.

Yerli kənd təsərrüfatı məhsullarının ərzaq təhlükəsizliyinin təminatında mühüm rol oynadığını nəzərən alan İEÖ-lər, tədqiqatımız zamanı gördüyümüz kimi ölkənin özünütəminat məsələsində vacib hesab etdiyi və daxili bazarın ehtiyaclarını ödəmək iqtidarında olmadığı kənd təsərrüfatı məhsullarının istehsalını genişləndirmək məqsədilə bir sıra dəstəkləyici – stimullaşdırıcı tədbirlərdən istifadə edirlər. Stimullaşdırıcı alət olaraq subsidiyadan daha çox istifadə olunduğu demək olar tədqiqat apardığımız yüksək iqtisadi inkişaf səviyyəsi ilə tanınan ölkələrin hamısı üçün səciyyəvi idi. Xüsusilə ABŞ, Kanada və Aİ-nin həyata keçirdiyi stimullaşdırıcı siyasətin ölkəmizdə də xüsusilə buğda məhsulu istehsalçısı olacaq repatriantlara tətbiq olunması istehsalın həcminin gözləniləndən daha artıq ola biləcəyinə zəmin yaradır. Çünki iqtisadi rayonda yenidən qurulacaq kənd təsərrüfatı infrastrukturu İEÖ-lərin aqrar infrastrukturu ilə eynilik təşkil edəcəkdir.

Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatının innovativ əsaslarla formalaşdırılacağını nəzərə alsaq o zaman iqtisadi rayonun ərazisində meyvə-tərəvəzlərin, bağçılıq məhsullarının yetişdirilməsi məqsədilə vertikal (şaquli) fermer təsərrüfatlarının qurulması da məqsədəuyğun hesab edilə bilər. Vertikal fermer təsərrüfatları hesablamalara görə sudan istifadəni 95%-ə qədər azaldır. Eyni zamanda iqtisadi rayonun bütün infrastruktur sahələrinin müasir tələblərə uyğun qurulacağını nəzərə alsaq bölgədə urban (şəhər) fermer təsərrüfatlarının qurulması da mümkündür. Urban və vertikal fermer təsərrüfatları bir-biri ilə əlaqədardır və sudan istifadənin əhəmiyyətlə dərəcədə minimallaşdırılması, artıq itkiyə yol verilməməsi və hidroponiklərdən istifadə olunması bu təsərrüfatlar üçün xarakterikdir (bax: şəkil 11).

**Şəkil 11: Hidroponik vasitəsilə təsərrüfatçılıq**




**Mənbə:** https://www.weforum.org/agenda/2019/02/hydroponics-future-of-farming/ məlumatları əsasında müəllif tərəfindən hazırlanıb, (02.03.2022).

Urban fermer təsərrüfatlarının istifadəsi üçün daha çox xarakterik olan hidroponiklərdən iqtisadi rayonda salınacaq ağıllı şəhərlərdə şəhər təsərrüfatçılığının formalaşdırılması və inkişafında istifadə olunması ölkəmiz üçün bu sahədə yenilik olacaqdır. Həmçinin qeyd etmək lazımdır ki, vertikal və urban təsərrüfatlarda hidroponiklərlə yanaşı aeroponiklərdən də istifadə olunur. Aeroponiklər quraşdırılması bir qədər yüksək xərc tələb etsə də əsasən meyvə - tərəvəz istehsalında istifadə olunur və məhsulun isehsalı üçün az resurs tələb edir. Eyni zamanda elmi – texniki tərəqqinin (ETT) son nailiyyətlərindən olan aeroponiklər daha az yer tutmaqla kəmiyyət və keyfiyyətcə daha üstün formada məhsul istehsalı prosesi formalaşdırır (bax: şəkil 12). İqtisadi rayonda ETT – nin ətraf mühitə və aqrar sektora gətirdiyi bu sərfəli istehsal üsulundan istifadə olunması müxtəlif meyvə növlərinin yetişdirilməsi nəticəsində məhsul bolluğu yarada bilər, eyni zamanda ənənəvi forma və üsullardan artıq yeni dövrün tələblərinə uyğun kənd təsərrüfatı kompleksinin transformasiyasına keçidi təmin edər.

**Şəkil 12: Aeroponik təsərrüfat üsulu**




**Mənbə:** https://www.weforum.org/agenda/2019/09/vertical-farming-agriculture-aerofarms/ məlumatları əsasında müəllif tərəfindən hazırlanıb, (03.03.2022).

Urban təsərrüfatçılıq ölkəmizin bu regionunun aqrar sektoru üçün tam bir yenilikdir və iqtisadi rayonun aqrar sektorunun ölkənin təsərrüfatçılıq sisteminə reinteqrasiyasında nəzərə alınması önəmli əhəmiyyət daşıyan məsələlərdən biri hesab olunması məqsədəuyğundur. Xüsusilə iqtisadi rayonun bitkiçilik məhsulları üçün əlverişsiz relyefdə vertikal və urban fermer təsərrüfatlarının formalaşdırılması münasibdir.

Kənd təsərrüfatının digər əsas sektoru olan heyvandarlığın iqtisadi rayonda yenidən fomalaşdırılıb inkişaf etdirilməsi reinteqrasiya siyasətində əsas vektorlardan biridir. Əhalinin heyvandrlıq sahəsində çoxəsrlik ənənəsinin mövcud olduğunu nəzərə alsaq bu sektorun iqtisadi rayonda yenidən qurulmasının sürətli şəkildə olacağı düşünülməkdədir. Heyvandarlıq sahəsinin formalşdırılıb inkişaf etdirilməsi əlbəttə ki, ölkəmizin ət və ət məhsulları ilə təminat məsələsinə ciddi təsir göstərəcəkdir. Hətta hipotetik hesablama şəklində apardığımız təhlil nəticəsində iqtisadi rayonun ölkə tabeliyində olması şəraitində mövcud idxal göstəricisinin böyük ölçüdə azaldığının şahidi olmuşduq. Aqrar sektorun yenidən qurulacağı gələcək dövrdə heyvandarlıq sahəsi inkişaf etdiriləcək və müasir texnologiyalardan

istifadə hesabına ət və ət məhsulları istehsalı daxili tələbatın ödənilməsi səviyyəsini yüksəldəcəkdir. Azərbaycan dövləti tərəfindən II Qarabağ müharibəsindən öncəki dönəmdə qəbul olunmuş dövlət proqramlarında 2027-2028-ci illərdə ölkəmizdə ət məhsulları ilə özünütəminatın yerli istehsal hesabına ödənilməsi səviyyəsinin 92% səviyyəsinə çatdırılması planlaşdrılırdı (Azərbaycan Respublikasında 2019-2023-ci illərdə heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı). İndiki yeni reallıqlar mərhələsində işğaldan azad olunmuş ərazilərdə, o cümlədən, Qarabağ iqtisadi rayonunda yenidən qurulcaq aqro sektor ət məhsulları ilə təminat səviyyəsini daha da artıracaqdır. Eyni zamanda heyvandarlıq sahəsi süd və yumurta istehsalına da öz təsirini göstərəcəkdir.

İqtisadi infrastrukturun o cümlədən, aqro sektorun yenidən qurulması dövlətimiz üçün böyük xərc tələb edən milli məsələdir. Bu sahələrin qurulmasında dövlətlə bərabər özəl sektorun yerli nümayəndələrinin həmçinin xarici investorların iştirakı bərpa prosesini sürətləndirə bilər. Özəl sektorun bu sahələrdə marağını cəlb etmək və stimullaşdırmaq məqsədilə fiskal (vergi və gömrük) və maliyyə güzəştlərinin tətbiq olunması yenidənqurma sahəsində mümkün dərəcədə böyük irəliləyişə gətirib çıxara bilər. İşğaldan azad olunan ərazilərdə fəaliyyət göstəmək istəyən özəl sektor nümayəndələrinə kredit xəttinin yaradılması və ya dövlətin sahibkarlığı dəstəklədiyi iqtisadi strukturlar vasitəsilə həmin ərazilərdə sahibkarlığı inkişaf etdirməsi məqbul hesab olunan planlardan biri ola bilər.

Ərazinin iqlim dəyişikliyi ilə mübarizə sahəsində effektivliyini yüksəltmək üçün aqromeşəlik təsərrüfat formalarının yaradılması mümkündür. Aqromeşəlik böyük təsərrüfat sahələrində eyni zamanda meşəlik sahələrin yaradılmasıdır. Birləşmiş Krallığın aqro sektoru üzrə tədqiqat aparan zaman fermerlərə meşəlik sahələrin salınması üçün subsidiya daxilində əlavə 4000 ABŞ dolları, milli valyutamızla ifadədə 6800 manat aralığında məbləğ ayrılması barədə məlumatlarla tanış olmuşduq. Bu halda ölkəmizin gələcəyinə doğru inteqrasiyalı baxış sərgilədiyimiz zaman təkcə aqrar – sənaye sektoru üzrə deyil, həmçinin aqromeşəlik təsərrüfat üslubunun yaradılması ölkəmizin ətraf mühit və iqlim dəyişikliyi siyasətində yenilik ola bilər.

Reinteqrasiya siyasətində ortamüddətli dövrdə fermerlərə subsidiyaların verilməsi məqsədəuyğundur. Sonrakı mərhələdə – aqrar sektorun iqtisadi inkişafının təməli formalaşdırıldıqdan sonrakı dövrlərdə artıq subsidiyadan asılılığı azaltmaqla bağlı Birləşmiş Krallıqdakı kimi siyasət yürütmək mümkündür.

Bütün aparılan təhlil və tədqiqatlar, dövlətimizin işğaldan azad olunan ərazilərin bərpası ilə bağlı strategiya və planları və keçmiş dövrün təhlilləri nəzərə alınaraq əsas kənd təsərrüfatı məhsulları üzrə gələcək dövrün təxmini hesablamaları aparılmışdır. Ölkəmizin Qarabağ iqtisadi zonasının reinteqrasiyası nəticəsində buğda, ət və ət məhsulları və süd məhsulları üzrə istehsal həcmi və 2030-cu ildə idxaldan asılılığı neçə faiz azaldacağı proqnozlaşdırılmışdır (bax: cədvəl 6).

**Cədvəl 6: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində 2026-2030-cu illərdə kənd təsərrüfatı məhsulları istehsalı proqnoz göstəricisi min tonla və 2030-cu ildə iqtisadi rayonun respublika üzrə idxaldan asılılığın azaldılması göstərcisi, %-lə**

| | İllər | | | | | 2030-cu ildə 2020-ci il respublika göstəricisinə nisbətən faizlə |
|---|---|---|---|---|---|---|
| | 2026 | 2027 | 2028 | 2029 | 2030 | |
| Buğda | 40 000 | 60 000 | 70 000 | 80 000 | 90 000 | 6.92% |
| Ət | 7 000 | 9 000 | 11 000 | 12 000 | 15 000 | 23.64% |
| Süd | 45 000 | 50 000 | 55 000 | 60 000 | 65 000 | 14.08% |

**Mənbə:** Müəllif tərəfindən proqnozlaşdırılıb.

Qeyd olunan məhsullar üzrə gələcək dövrün idxal göstəricisi 2020-ci ilin göstəriciləri sabit saxlanılmaqla hesablanmışdır. Təxmini hesablamalarımıza görə buğdanın idxal göstəricisi 6.92%, ət və ət məhsullarının 23.64%, süd məhsullarının isə 14.08% azalacaqdır. Əhalinin iqtisadi rayonun bölgələrinə repatriasiyasından sonrakı mərhələdə onların yeni tipli kənd təsərrüfatı sistem və idarəetməsinə adaptasiyasını tezləşdirmək məqsədilə təlim, konsultasiya xidmətləri göstərilməlidir. Bu halda istehsal göstəriciləri təxmini hesablarımızdan daha yüksək ola bilər.

Nəzərə alsaq ki, qarşıdakı dövr üçün ölkəmizin ÜDM-i və adambaşına düşən ÜDM məbləğinin artması gözlənilir bu kontekstdə Qarabağda yenidənqurma və bərpa işlərinin gedişi əlbəttə ki, sürətlənəcəkdir (bax: şəkil 13).

**Şəkil 13: Ölkəmizin 2024-2027-ci illər üzrə proqnozlaşdırılan ÜDM və adambaşına düşən ÜDM məbləği göstəriciləri**




**Mənbə:** https://www.statista.com/statistics/457496/gross-domestic-product-gdp-in-azerbaijan/ məlumatları əsasında hazırlanıb, (29.05.2022).

Proqnozlaşdırılan göstəricilərə əsasən respublikamızın ÜDM göstəricisi 2024-2027-ci illər arasında 73 milyard ABŞ dollarından 80 milyard dollar səviyyəsinə yüksələcəkdir. Eyni zamanda adambaşına düşən ÜDM göstəricisi ABŞ dolları ilə ifadədə 7000 səviyyəsindən 7300 dollar səviyyəsinə çatacaqdır. Manatla ifadə etsək o zaman qeyd etməliyik ki, 2024-cü il üçün proqnozlaşdırılan ÜDM məbləği 124 milyard manat, 2027-ci ildə isə bu məbləğin 136 milyard manata çatacağı gözlənilir. Adambaşına düşən ÜDM məbləği isə 2027-ci ildə 12523 manat səviyyəsində olacağı proqnozlaşdırılır.

Ölkəmizin iqtisadiyyatının inkişafı yeni dövr kənd təsərrüfatı sisteminin işğaldan azad olunmuş ərazilərdə qurulmasını sürətləndirəcəkdir. Nəinki kənd təsərrüfatının eləcə də bütün infrastruktur layihələrinin reallaşmasına öz əhəmiyyətli töhfəsini verəcəkdir.

İqtisadi rayonda formalaşdırılacaq müasir aqrar sektorun forma və struktur cəhətdən ölkəmizin digər bölgələrinə transformasiyası nəticədə respublikamızda

aqrar sektorun kəmiyyət və keyfiyyətcə yeni dövrə qədəm qoymasına gətirib çıxaracaqdır. Beləliklə respublikamızda yüksək standartlara malik aqrar – sənaye məhsulları istehsalı və ixracı potensialının formalaşdırılması mümkündür. Bunun üçün artıq ötən dövr ərzində irimiqyaslı nəqliyyat – infrastruktur layihələri həyata keçirilmişdir. Bakı – Tbilisi – Qars (BTQ) dəmiryolu layihəsi dövlətimizin resursları hesabına uzunmüddətə tikilib 2017-ci ildə artıq istifadəyə verilmişdir. Layihənin həyata keçirilməsinin uzunmüddət tələb etməsinin səbəbi ABŞ və Aİ – nin Ermənistanın layihədən kənarda qalmasına razılıq verməməsi və Bakı – Tbilisi – Gümrü – Qars dəmiryolunun açılmasını tələb etməsi idi. Buna görə ölkəmizin təşəbbüskarı olduğu layihəyə beynəlxalq maliyyə institutları tərəfindən heç bir vəsait ayırılmamışdır və 10 il müddətinə ölkəmizin maliyyə resursları hesabına Ermənistandan kənar keçməklə BTQ dəmiryolu layihəsi tikilib istifadəyə verilmişdir. II Qarabağ müharibəsində dövlətimizin Ermənistan üzərində qələbəsi tarixi torpaqlarımız olan Zəngəzur ərazisindən Naxçıvana avtommobil və dəmiryolu nəqliyyat layihələrini icra etmək üçün “Zəngəzur dəhlizi” layihəsinin həyata keçirilməsi imkanı yaratmışdır. Zəngəzur vasitəsilə Naxçıvana, oradan da Qars şəhərinə qədər uzanacaq bu dəhliz BTQ dəmiryolu ilə müqayisədə məsafəni 340 km azaldır. Belə olan halda yüklərin daşınması, o cümlədən kənd təsərrüfatı məhsullarının ixracı ölkəmiz üçün daha əlverişli olur (bax: şəkil 14). Qardaş Türkiyə Cümhuriyyətinin İstanbuldan Londona qədər uzanan dəmiryolu şəbəkəsinə sahib olması ölkəmizdə, o cümlədən, Qarabağ iqtisadi rayonunda istehsal olunan aqro-sənaye məhsullarının Avropa bazarlarına çıxarılması üçün imkanlar yaradacaqdır. Bu isə öz növbəsində ölkəmizin nəqliyyat logistika sahəsində önəmli aktorkardan birinə çevrilməsinə şərait yaradacaq və böyük valyuta axının təmin olunmasına gətirib çıxaracaqdır.

**Şəkil 14: Cənubi Qafqazda dəmiryolu şəbəkəsi və Zəngəzur dəhlizi**




**Mənbə:** https://www.cnnturk.com/video/turkiye/zengezur-koridoru-turk-dunyasini-birlestirecek məlumatları əsasında müəllif tərəfindən hazırlanıb, (18.03.2022).

Şəkil 14-dən göründüyü kimi hazırda Bərdədən Ağdama qədər layihələndirilən dəmiryolu yaxın gələcəkdə Xankəndiyə qədər uzadılacaqdır. Bununla paralel Füzulidən Şuşaya layihələndirilmə mərhələsində olan dəmir yolu iqtisadi rayonun ölkəmizə reinteqrasiyası prosesini sürətləndirəcəkdir. İqtisadi rayonda istehsal olunacaq kənd təsərrüfatı və sənaye məhsullarının ölkəmizin digər bölgələrinə dəmir yolu ilə çatdırılması prosesi dərinləşəcəkdir.

Zəngəzur dəhlizi ölkəmizin şərq-qərb nəqliyyat habına çevirilməsinə əhəmiyyətli töhfə verəcəkdir. Çin tərəfindən başladılan bir kəmər bir yol nəqliyyat strategiyasına uyğun olaraq yüklərin Çindən Avropaya daşınması bu dəhlizdən istifadə hesabına daha sürətli olacaqdır. Eyni zamanda Aİ tərəfindən 2021-ci ilin dekabrında elan olumuş 2021-2027-ci illərdə qurulması nəzərdə tutulan "Qlobal Giriş" və ya "Qlobal Qapı" adlandırılan ümumi dəyəri 340 milyard ABŞ dolları təşkil edən layihəyə ölkəmizin maraqları çərçivəsində qoşulmaq bununla da kənd təsərrüfatı və sənaye məhsullarının ixrac edildiyi ölkələrin siyahısını diversifikasiya etmək mümkün ola bilər (https://ec.europa.eu/info/strategy/priorities-2019-2024/stronger-europe-world/global-gateway_en). Hazırda ölkəmizin ticarət apardığı tərəfdaşlar sırasında əsas hissə Aİ payına düşür. (bax: şəkil 15).

**Şəkil 15: Azərbaycanın hazırkı və gələcək dövr üçün potensial ixrac bazarları**




**Mənbə:** https://www.eeas.europa.eu/delegations/azerbaijan/eu-azerbaijan-business-forum_en?s=217 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir (26.05.2022).

İttifaqa üzv olan 9 dövlətlə - Latviya, Litva, Rumıniya, Xorvatiya, İtaliya, Macarıstan, Bolqarıstan, Çexiya və Polşa ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər imzalanmışdır (https://oxu.az/politics/555529). Avropa İttifaqına 27 dövlət daxildir və ittifaqın 24 üzv dövləti ilə vergi sahəsində, xüsusilə ikiqat vergitutmanın ləğvi, 17 üzvü ilə isə investisiyaların təşviqi və müştərək qorunması barəsində müqavilələr imzalanıb (https://www.economy.gov.az/article/azerbaycan-avropa-i-ttifaqi-elaqeleri-muzakire-edilib/29242). Şəkil 15-də ölkəmizin əsas ticarət tərəfdaşlarının bir qismi göstərilmişdir. Əsas ticarət tərəfdaşlarımız qonşu ölkələr və Aİ ölkələridir. Ölkə başçısı Prezident İlham Əliyev tərəfindən inkişafa istiqamətlənən siyasət yürüdülməkdədir və bu siyasətin nəticəsində Azərbaycan dünya ölkələri arasında etimad göstərilən dövlətə çevrilmişdir. Beləliklə qonşularla və Aİ ölkələri ilə ticarətin daha da genişlənəcəyi perspektiv dövr ölkəmizin iqtisadiyyatının diversifikasiyasını sürətləndirəcəkdir.

Xüsusilə Aİ ilə diplomatik münasibətlərin intensivləşdiyi bir vaxtda yaxın gələcəkdə siyasi münasibətlərin daha da dərinləşməsi və ölkəmizdə yüksək standartlara malik aqrar-sənaye məhsullarının istehsalına başlanması şəraitində ittifaq bazarlarına milli brend adı altında məhsulların çıxarılması mümkün olacaqdır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanda əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində Qarabağ iqtisadi rayonunun hansı rola malik olduğu işğaldan əvvəlki dövrlər üzrə aparılan təhlil nəticəsində ortaya çıxarılmışdır. İqtisadi rayonunun işğaldan azad olunan əraziləri üzrə aparılan təhlil keçmiş dövrdə əsas kənd təsərrüfatı məhsullarının istehsalında ölkə üzrə xüsusi çəkisinin nəzərəçarpan dərəcədə yüksək olduğu məlum olmuşdur. İşğaldan öncəki dönəmlərdə kənd təsərrüfatı sektorunun iki əsas qolu olan əkinçilik və heyvandarlıq iqtisadi rayon ərazisində formalaşmış və inkişaf etdirilmişdir. Beləcə iqtisadi rayonda yerli kənd təsərrüfatı məhsullarının xammalı bazasında sənaye inkişaf etmişdir. Bu proses də öz növbəsində əhalinin məşğulluğuna, işsizliyə, ölkənin aqrar sektorun məhsulları ilə özünütəminetmə səviyyəsinə, ərzaq təhlükəsizliyinin təmin olunmasına birbaşa təsir göstərmişdir.

Ərzaq təhlükəsizliyinin təminatında yüksək iqtisadi inkişaf səviyyəsi ilə tanınan xarici ölkələrin təcrübəsi üzərində aparılan tədqiqat ilk növbədə subsidiya proqramlarından geniş istifadə olunması faktını ortaya çıxarmışdır. Aqrar sahə ilə əlaqədar ənənəvi sahələrlə yanaşı yeni sahənin – aqroturizm sahəsinin və bu sahədən gəlir əldə edilməsi faktı tədqiqat nəticəsində məlum olmuşdur.

Müasir mərhələdə iqtisadi rayon üçün gələcək perspektiv dövr üzrə həyata keçirilməsi nəzərdə tutulan planları və keçmiş dövrdə kənd təsərrüfatının mövcud olmuş yüksək inkişaf tempini nəzərə alaraq aşağıdakı təkliflərin həyata keçrilməsi məqsədəuyğun hesab edilə bilər:

- İqtisadi rayonun ölkəmizin iqtisadi sisteminə düzgün və planlı şəkildə qoşulması üçün bu sahədə müvafiq qanunvericiliyin, o cümlədən, reinteqrasiya barədə qanun, hüquqi-normativ aktların qəbul olunması işlərin ardıcıl və surətli və eyni zamanda planlı şəkildə həyata keçirilməsinə mühüm töhfə verəcəkdir;
- Uzun müddətdir məcburi köçkün halına düşmüş vətəndaşlarımızın iqtisadi rayonun ərazisinə repatriasiyası zamanı yeni ağıllı kənd təsərrüfatı üçün bilik və bacarıqlarının yenidən öyrədilməsi məqsədilə onlara məsləhət-konsultasiya xidmətlərinin göstərilməsi;

- Ağıllı təsərrüfatlarla yanaşı şaquli və urban fermer təsərrüfatlarının yaradılması sudan istifadəni optimllaşdırmağa, məhsul bolluğuna, yerli məhsullar hesabına sənaye əsaslı kənd təsərrüfatı məhsullarının istehsalına və bununla da ixrac imkanlarının artmasına gətirib çıxaracaqdır;

- İqtisadi rayonda və ölkəmizdə fermer təsərrüfatlarının yeni 4-cü və ya 5-cü dövr kənd təsərrüfatı sisteminə uyğun surətdə qurulması üçün dövlət tərəfindən güzəştli kredit xəttinin yaradılması və bu kredit məbləğinin minimum 60min manat civarında olması məqsədəmüvafiqdir;

- İqtisadi rayonun aqrar sektorunun yenidən qurulmasında yerli və xarici investorların cəlb edilməsi bərpa prosesini sürətləndirəcəkdir. İnvestorların cəlbi məqsədilə onlara vergi və gömrük sahəsində güzəştlərin tətbiq edilməsi mümkündür. Bu məqsədlə həm aqrar həm də sənaye sahəsində fəaliyyətə başlayacaq sahibkarlara ilk 4 il ərzində vergidən azadolma siyasəti tətbiq edilə bilər;

- Prioritet məhsul növlərinin subsidiyalaşdırılması xüsusilə bu sahədə ABŞ, Fransa və İtaliya təcrübəsindən geniş istifadə edilməsi münasibdir. Azərbaycanda buğda ilə özünütəminat səviyyəsinin 57% civarında olduğunu nəzərə alaraq xüsusilə bu məhsul növünün geniş şəkildə subsidiyalaşdırılması dövlətin strateji təhlükəsizliyinə böyük töhfə verəcək;

- Müvafiq kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və istehsalı üçün məhsulların rayonlaşdırılması prosesinin effektiv surətdə tətbiq edilməsi vacibdir. Prioritet olaraq buğda məhsulu üçün keçmiş dövrdə Ağdam, Füzuli, Xocavənd, Xocalı və Tərtər rayonlarında geniş məhsuldarlığa malik olduğu nəzərə alınmalıdır.

- İqtisadi rayonda iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində aqromeşə təsərrüfatların yaradılması istiqamətində tədqiqat zamanı öyrənilən Böyük Britaniya təcrübəsinin tətbiqi – yəni subsidiya daxilində bu sahənin inkişaf etdirilməsi üçün məbləğin ayrılması. Eyni zamanda Aİ təşkilatının bu sahə üzrə siyasətindən – meşəlik sahələrin salınması əlaqədar mükafatların verilməsi siyasətindən istifadə edilməsi iqlim dəyişikliyi ilə mübarizəyə öz töhfəsini verəcəkdir;

- Üzümçülüyün işğaldan əvvəlki dövrdə geniş vüsət aldığını və böyük inkişaf potensialına malik olduğunu nəzərə alaraq iqtisadi rayonda Almaniya şərabçılığında

istifadə olunan üzüm sortlarından da istifadə edilməklə şərabçılığın yüksək səviyyədə inkişaf etdirilməsi;

- Aztəminatlı şəxs və ya ailələrin ərzaq məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədilə ABŞ-ın təcrübəsindən, xüsusilə ƏQYP kimi proqramlardan istifadə bu sahədə yenilik olacaqdır;

- Aİ təşkilatının tələbin kəskin azalması və ya təklifin həddindən artıq olduğu bazar vəziyyətini tənzimləmək üçün istifadə etdiyi Bazar tənzimlənməsi alətinin tətbiqi ölkəmizdə ərzaq məhsullarının qiymətini münasib həddə saxlanılmasına kömək edəcəkdir;

- Kənd təsərrüfatında ölkəmiz üçün yenilik olacaq aqroturim sektorunun həm iqtisadi rayonda həm də ölkəmizin digər ərazilərində yaradılması mümkündür və bu sektor əlavə gəlirin əldə edilməsinə rəvac verəcəkdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


***Azərbaycan dilində***

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir
2. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektoru üzrə strateji yol xəritəsinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli Fərmanı
3. Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı 2004-2008, 2009-2013, 2014-2018- 2019-2023-cü illər
4. Azərbaycan Respublikasında 2019-2023-cü illərdə heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı
5. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanı
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanın kənd təsərrüfatı:2021
7. Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı, Bakı 2001
8. Nağıbəyli T.M., "Azərbaycanda Kənd Təsərrüfatının İnkişafı və Dövlət-Özəl Əməkdaşlığı". Kənd Təsərrüfatının iqtisadiyyatı elmi-raktiki jurnalı, 2020, №4, (34), səh.174-176

***Rus dilində***

1. Народное Хозяйство Азербайджанской ССР 1987
2. Сельское Хозяйство Азербайджанской ССР 1987
3. Сельское Хозяйство Азербайджанской ССР 1978

***İngilis dilində***

1. Agriculture in the United Kingdom Department for Environment, Food and Rural Affairs, 2020

2. D.Clercq, M.Vats and A.Biel, (2018). Agriculture 4.0: Agricultural robotics and automated equipment for sustaineble crop production, Rome, “Food and Agriculture Organization of the United Nations”, 40p

3. European Comission Rural Development Programme Factsheet: Italy, June 2020

4. European Comission Statistical Factsheet: France, June 2021

5. European Comission Statistical Factsheet: Italy, June 2021

6. European Comission: Questions and Answers on Global Gateway 2021

7. Government of Canada: Agricultural Clean Technology Program, Ottawa, 2021

8. Office for National Statistics, UK trade 2020

9. Rural Development Programme for England 2015

10. Saiz-Rubio.V and Rovira-Más.F (2020). From samrt farming towards agriculture 5.0: a review on crop data management, Valencia, “Agricultural Robotics Laboratory (ARL)”, 21p

11. Santios-Velle.S and Kienzle.J (2020). Agriculture 4.0: agricultural robotics and automated equipment for sustainable crop production, Rome, “FAO”, 40p

12. Shafiyev.F., Huseyniv.V., Heintze.H-J., and Ronzitti.N, (2021). Neglected Victim of the Armenia – Azerbaijan conflict: Evironmental Impacts of Occupation. Baku, “Air Center”, 48p

13. T.Malthus (1798). An Essay on the Principle of Population, London, “Electronic Scholarly Publishing Project”, 134p

14. US Department of Agriculture Economic Research Service, World Agricultural Supply and Demand Estimates at a Glance, 2020

15. US Department of Agriculture, Farm Service Agency, Farm Bill 2018

16. US Department of Agriculture, Food and Nutrition Service, Summary of annual data, FY 2016-2020

***Fransız dilində***

1. Ministre De l'Agriculture Et De l'Alimentation, Agricultrices et agriculteurs 2020

2. Ministre De l’Agriculture Et De l’Alimentation Developpement agricole et rural: appels a projects 2021

***Alman dilində***

1. Bundesministerin für Ernahrung und Landwirtschaft, Agrarpolitischer Berich der Bundesregierung 2019

2. Deutscher Wein Statistik 2021/2022, Berlin, 40p

3. Die Regierung Von Deutschland, Zehn Fakten zur Landwirtschaft, 2019

***İtalyan dilində***

1. Sistema statistico nazionale Istituto nazionale di statistica, Annuario Statistico Italiona 2021

***İnternet resursları***

1. http://www.e-qanun.az/framework/34254, 2021

2. https://agriculture.canada.ca/en/agricultural-programs-and-services, 2021

3. https://www150.statcan.gc.ca/n1/en/pub/96-325-x/2019001/article/00003-eng.pdf?st=E8zCJBWe, 2021

4. https://data.worldbank.org/indicator/SP.POP.TOTL?locations=AZ-GE-AM, 2021

5. https://ec.europa.eu/info/food-farming-fisheries/key-policies/common-agricultural-policy/cap-glance_en, 2021

6. https://ec.europa.eu/info/sites/default/files/food-farming-fisheries/farming/documents/agri-statistical-factsheet-fr_en.pdf, 2021

7. https://hungerandhealth.feedingamerica.org/understand-food-insecurity/, 2021

8. https://impact.economist.com/sustainability/project/food-security-index/Index, 2021

9. https://president.az/articles/24659 2021

10. https://www.downsizinggovernment.org/agriculture/subsidies 2021

11. https://www.ers.usda.gov/amber-waves/2019/november/agritourism-allows-farms-to-diversify-and-has-potential-benefits-for-rural-communities/ 2021

12. https://www.fao.org/3/mt648e/mt648e.pdf, 2021

13. https://www.fao.org/fileadmin/templates/wsfs/Summit/Docs/Final_Declaration/WSFS09_Declaration.pdf 2021

14. https://www.fns.usda.gov/tefap/tefap-fact-sheet 2021

15. https://www.germanwines.de/fileadmin/user_upload/Website/Service/Downloads/Statistik_2021-2022.pdf 2021

16. https://www.gov.uk/government/news/government-unveils-path-to-sustainable-farming-from-2021 2021

17. https://www.gov.uk/guidance/rural-development-programme-for-england-leader-funding 2021

18. https://www.fao.org/3/y4671e/y4671e06.htm 2021

19. https://www.investopedia.com/search?q=SNAP 2021

20. https://www.medicalnewstoday.com/articles/263028#calories-and-health 2021

21. https://www.ohchr.org/Documents/Publications/FactSheet34en.pdf 2021

22. https://www.un.org/millenniumgoals/2015_MDG_Report/pdf/MDG%202015%20PR%20Key%20Facts%20Global.pdf 2021

23. https://www.un.org/sustainabledevelopment/hunger/ 2021

24. https://www.un.org/sustainabledevelopment/poverty/ 2021

25. https://www.wfp.org/history 2021

26. https://xalqqazeti.com/az/news/77715 2021

27. https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/azerbaycanin-isgal-altindaki-topraklari-karabag/1989594 2021

28. https://data.worldbank.org/indicator/SP.POP.TOTL?locations=AZ-GE-AM 2022

29. http://www.demoscope.ru/weekly/ssp/resp_nac_89.php?reg=71 2022

30. https://customs.gov.az/modules/pdf/pdffolder/104/FILE_471682-B0ED4D-C59730-B2447C-7400E7-C9CA3A.pdf 2022

31. https://www.ecoi.net/en/document/1040372.html 2022

32. https://customs.gov.az/uploads/foreign/2020/2020_12.pdf?v=1640608671 2022

33. https://story.karabakh.center/en/ecocide-in-karabakh 2022

34. http://www.demoscope.ru/weekly/ssp/resp_nac_79.php?reg=70 2022

35. http://www.demoscope.ru/weekly/ssp/resp_nac_70.php?reg=67 2022

36. https://www.forbes.com/sites/cognitiveworld/2019/07/05/how-ai-is-transforming-agriculture/ 2022

37. https://eos.com/blog/top-5-newest-technologies-in-agriculture/ 2022

38. https://www.dw.com/en/eu-unveils-global-gateway-300-billion-global-infrastructure-plan/a-59986009 2022

39. https://ec.europa.eu/info/strategy/priorities-2019-2024/stronger-europe-world/global-gateway_en 2022

40. https://www.eeas.europa.eu/delegations/azerbaijan/eu-azerbaijan-business-forum_en?s=217

41. https://oxu.az/politics/555529 2022

42. https://www.economy.gov.az/article/azerbaycan-avropa-i-ttifaqi-elaqeleri-muzakire-edilib/29242 2022

43. https://www.cnnturk.com/video/turkiye/zengezur-koridoru-turk-dunyasini-birlestirecek 2022

44. https://www.statista.com/statistics/457496/gross-domestic-product-gdp-in-azerbaijan/, 2022

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Cənubi Qafqaz ölkələrində 1970-1990-cı illərdə əhalinin sayı, min nəfərlə................44
**Cədvəl 2:** DQMV – də əhalinin ümumi sayı şəhər və rayon əhalisi ilə birlikdə, min nəfər.........44

**Cədvəl 3:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində heyvandarlıq, 1985 50
**Cədvəl 4:** DQMV, Ağdam və Füzuli regionlarında əhalinin sayı, min nəfərlə, 1985 ..................57
**Cədvəl 5:** İqtisadi rayon və respublika üzrə hipotetik şəkildə əldə oluna bilməsi təsəvvürə gətirilən əsas kənd təsərrüfatı məhsullarının miqdarı, min tonla, 2020 ....................................................59
**Cədvəl 6:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində 2026-2030-cu illərdə kənd təsərrüfatı məhsulları istehsalı proqnoz göstəricisi min tonla və 2030-cu ildə iqtisadi rayonun respublika üzrə idxaldan asılılığın azaldılması göstərcisi, %-lə..................................................71

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində sovet dönəmində üzüm istehsalı, min tonla..................................................................................................................39
**Qrafik 2:** DQMV-də dövlətə satılan kənd təsərüfatı məhsulların miqdarı, tonla, 1977...............40
**Qrafik 3:** Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulunun həcmi manatla, 1985...........41
**Qrafik 4:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazilərində sovet dönəmində mövcud olmuş kənd təsərrüfatı müəssisələrinin sayı, mütləq rəqəmlə, 1985 ...........................................42
**Qrafik 5:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatına yararlı torpaq sahələri, ha, 1985 ..................................................................................................45
**Qrafik 6:** Qarabağ iqtisadi zonasına daxil olan rayonlarda işğaldan öncəki dönəmdə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, ha, 1985.................................................................................47
**Qrafik 7:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində buğda istehsalı, min ton, 1980-1985..........................................................................................................................48
**Qrafik 8:** İqtisadi rayonun azad olunmuş əraziləri üzrə ümumilikdə 1965-1985-ci illər arası buğda istehsalı, min ton.......................................................................................................................49
**Qrafik 9:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində ət və süd istehsalı, ton, 1985 ..............................................................................................................................................51
**Qrafik 10:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində yumurta istehsalı, ədəd, 1985.........................................................................................................................................52
**Qrafik 11:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində taxıl istehsalı və iqtisadi rayon üzrə taxıl istehsalında rayonların xüsusi çəkisi, 1985 ...........................................54
**Qrafik 12:** Qarabağ (DQMV, Ağdam və Füzuli) və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan əvvəlki dövrdə ölkə üzrə kənd təsərrüfatı məhsulları istehsalında xüsusi çəkisi, %-lə, 1985.......55
**Qrafik 13:** Azərbaycan Respublikasında bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, %-lə, 2020...................................................................................................................58

## Şəkillərin siyahısı

**Şəkil 1:** DİM-in I məqsədi olan “Yoxsulluğa Son” məqsədinin hədəfləri...................................17
**Şəkil 2:** DİM-in II məqsədi olan “Sıfır Aclıq”məqsədinin hədəfləri ............................................18
**Şəkil 3:** Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində ilk 20-likdə yer alan Avropa ölkələri, 2021....19
**Şəkil 4:** Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində Azərbaycan, 2016-2021-ci illərdə ..................34
**Şəkil 5:** Yeni iqtisadi rayonlaşma və Qarabağ iqtisadi rayonu ....................................................36
**Şəkil 6:** Ləğv olunmuş DQMV, 1923-1991...................................................................................37
**Şəkil 7:** Qarabağ iqtisadi rayonunda işğaldan öncəki dönəmdə mövcud olmuş əsas avtomobil yolları..............................................................................................................................................43

**Şəkil 8:** Qarabağ iqtisadi rayonunun işğaldan azad olunan ərazisində kənd təsərrüfatına yararlı torpaq sahələri, əkinə yararlı torpaq sahələri və kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, 1985 ..46
**Şəkil 9:** Qarabağ iqtisadi rayonunda 1975-1985-ci illər arasında ət və süd məhsulları istehsalının respublika üzrə xüsusi çəkisi, faizlə ........52
**Şəkil 10:** Ənənəvi və ağıllı fermer təsərrüfatlarının fərqləri ........63
**Şəkil 11:** Hidroponik vasitəsilə təsərrüfatçılıq ........67
**Şəkil 12:** Aeroponik təsərrüfat üsulu ........68
**Şəkil 13:** Ölkəmizin 2024-2027-ci illər üzrə proqnozlaşdırılan ÜDM və adambaşına düşən ÜDM məbləği göstəriciləri ........72
**Şəkil 14:** Cənubi Qafqazda dəmiryolu şəbəkəsi və Zəngəzur dəhlizi ........73
**Şəkil 15:** Azərbaycanın hazırkı və gələcək dövr üçün potensial ixrac bazarları ........75